

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Qarabağ: Zəngilanın Azərbaycan iqtisadiyyatındakı rolu



15

SƏS
№ 077 (6760)
5 may 2023-cü il.
Qiymәti 60 qәpik

# Hər şey dirçəliş və inkişaf üçün!



2

Prezident İlham Əliyev mayın 4-də Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarına səfər edib

# ERMƏNİSTAN TƏLAŞ İÇİNDƏDİR!

Vaşinqton danışıqlarına görə düşmən ölkədə çaxnaşma yaranıb



5

## Xalçaçılıq sənətinin beşiyi



13

## Daxili turizmin inkişafı qiymət artımına səbəb olacaq?



16

## Əli Kərimli müxalifətin üz qarasına çevrilib



14



11

## Fitnes zalı necə seçilməlidir?

## Arıqlamağın ən uyğun yolu



10

# Hər şey dirçəliş və inkişaf üçün!

## Prezident İlham Əliyev mayın 4-də Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarına səfər edib

**Mayın 4-də Laçın rayonunun Güləbird kəndinin təməli qoyulub. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Azərbaycan Prezidentinə kənddə görüləcək işlər barədə məlumat verdi.**

Bildirildi ki, Güləbird kəndində ümumilikdə 581 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ərazinin ümumi sahəsi 172 hektardır. Birinci mərhələdə kəndə 150 ailənin köçürülməsi üçün fərdi evlərin inşası planlaşdırılır. Kənddə tikiləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. İkiotaqlı evlərin sahəsi 70, üçotaqlılar 88, dördotaqlılar 103, ikimərtəbəli olacaq beşotaqlıların sahəsi isə 120 kvadratmetr təşkil edəcək. Burada, həmçinin 432 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası tikiləcək. Prezident İlham Əliyev Güləbird kəndinin təməlini qoyub.

Prezident İlham Əliyev mayın 4-də Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak edib. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına yaşayış məhəlləsi barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 2,6 hektara yaxın olan yaşayış məhəlləsinin yerləşdiyi ərazi çay və dağ mənzərəsi ilə əhatə olunub. Məhəllə şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə binaların üçmərtəbəli və dördmərtəbəli olması planlaşdırılır. Ümumilikdə məhəllədə 156 mənzilin tikintisi nəzərdə tutulur. Mənzillərdən 48-nin ikiotaqlı, 68-nin üçotaqlı, 20-sinin dördotaqlı və 20-sinin isə beşotaqlı olması planlaşdırılır. Binaların inşasında müasir memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Daha sonra dövlətimizin başçısı Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlini qoyub.







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı şəhərində tikiləcək inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib. Dövlətimizin başçısına layihə barədə məlumat verildi.

Bildirildi ki, inzibati bina şəhərin giriş hissəsində, Baş plana əsasən işgüzar zona kimi müəyyən olunmuş bir hektar ərazidə tikiləcək. Binanın konsepsiyasının hazırlanması zamanı milli memarlıq elementləri, yaşıl fasad və dam həlləri, həmçinin günəş panellərinin inteqrasiyası nəzərə alınıb. Üçmərtəbəli binada avtomobillər üçün yeraltı parklanma nəzərdə tutulub. Binanın daxili planlaşdırılması müxtəlif mərtəbələrin vizual şəkildə əlaqələnməsini təmin edir. Bu yanaşma dinamik və müasir tələblərə cavab verən işgüzar mühitin formalaşmasına şərait yaradacaq.



Binanın birinci mərtəbəsi müxtəlif tipli iclas və təlim otaqları, həmçinin çoxfunksiyalı xidmət sahələri üçün nəzərdə tutulub. Burada, həmçinin bir sıra dövlət və hökumət qurumlarının yerli idarə, şöbə və bölmələri fəaliyyət göstərəcək. İkinci və üçüncü mərtəbələrdə isə müxtəlif kateqoriyalara uyğun iş sahələrinin yaradılması planlaşdırılıb. Prezident İlham Əliyev inzibati binanın təməlini qoyub.

Dünən Prezident İlham Əliyev mayın 4-də Qubadlı şəhərində 600 şagird yerlik tam orta məktəb binasının təməlinin qoyulması mərasimində iştirak edib. Dövlətimizin başçısına məktəb binası ilə bağlı məlumat verildi.

Bildirildi ki, məktəb Qubadlı şəhəri, Dondarlı kəndi və ona bitişik açıq ərazidə inşa olunacaq. Təhsil ocağı və ona məxsus açıq ərazilər yaşayış sahələri ilə əhatə olunacaq. Məktəbin həyətyanı ərazisindəki idman qurğularından və oyun meydançalarından axşamlar və həftə sonları ictimaiyyət nümayəndələri də istifadə edə biləcəklər.

Qeyd edildi ki, məktəb binası modul tipli sinif otaqlarından istifadə olunmaqla layihələndirilib. Təbii işıqla işıqlandırılmış daxili məkanlar məktəbin enerji tələbatını minimuma endirəcək. Binanın strukturu uyğunlaşan sistemdir və şəhərin böyüməsi ilə bağlı şagird sayı artdıqca genişləndirilə bilər. Dövlətimizin başçısı məktəb binasının təməlini qoyub. Dünən həmçinin Qubadlı şəhərində 91 çarpayılıq Mərkəzi Xəstəxana binasının təməlinin qoyulması mərasimi keçirilib. Dövlətimizin başçısına xəstəxana binasının layihəsi barədə məlumat verilib.

Bildirildi ki, 4,5 hektardan çox ərazidə inşa olunacaq bu tibb müəssisəsi inzibati binadan, stasionar və ambulator xidmət hissələrindən ibarət olacaq. Stasionar xidmət hissəsində qəbul, terapiya, cərrahiyyə, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək. Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından ibarət olacaq.

Müalicə ocağı ən müasir tələblərə cavab verən tibbi avadanlıq, o cümlədən kompüter tomoqrafiya, maqnit-rezonans tomoqrafiya, angioqrafiya və digər cihazlarla təchiz ediləcək. Daha sonra Prezident İlham Əliyev xəstəxana binasının təməlini qoyub.

*Ardı Səh. 3*

# Hər şey dirçəliş və inkişaf üçün!

## Prezident İlham Əliyev mayın 4-də Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarına səfər edib

Əvvəli Səh.2

Mayın 4-də Qubadlı rayonunun Xanlıq kəndinin təməli qoyulub. Prezident İlham Əliyev təməlqoyma mərasimində iştirak edib. Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi. Bildirildi ki, kənd Qubadlı rayonunun mərkəzindən 16 kilometr məsafədə, Həkəri çayının sahilində yerləşir. Yaşayış məntəqəsinin layihələndirilən ərazisi elə Xanlıq kəndinin köhnə ərazisini əhatə edir və ümumi sahəsi 273 hektardan çoxdur.

Qeyd edildi ki, birinci mərhələdə kəndə 1357 nəfərin köçürülməsi üçün 356 fərdi evin tikintisi nəzərdə tutulur. İnşa ediləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. Perspektivdə Xanlıq kəndində 4 mindən çox sakinin (1024 ailə) məskunlaşdırılması planlaşdırılıb. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Həmçinin inzibati bina, məktəb, uşaq bağçası, ailə sağlamlıq, klub icma və idman sağlamlıq mərkəzləri fəaliyyət göstərəcək. Prezident İlham Əliyev Xanlıq kəndinin təməlini qoyub.

Azərbaycan Prezidenti İlham Əliyev Qubadlı rayonunun Mahruzlu kəndinin təməlinin qoyulması mərasimində iştirak edib. Dövlətimizin başçısına kəndin layihəsi barədə məlumat verildi.









Qeyd olundu ki, kənd Qubadlı rayonunun mərkəzindən 19 kilometr məsafədə yerləşir. Kəndin layihələndirilən ümumi ərazisi 197 hektar təşkil edir. Gələcəkdə bu kənddə 2700-dən çox sakinin, başqa sözlə, 690 ailənin yaşaması planlaşdırılıb. Mahruzlu kənd inzibati ərazi dairəsində yerləşən Alaqurşaq və Muğanlı kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib. Birinci fazada kənddə 145 evin tikilməsi və 649 nəfərin məskunlaşdırılması planlaşdırılır. Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi, çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, sənətkarlıq emalatxanası, tibb məntəqəsi, mərasim zalı, çayxana da yaradılacaq.



Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğu üçün hər cür şərait təmin ediləcək. Sonra kəndin inkişaf planı barədə videoçarx nümayiş olundu. Prezident İlham Əliyev Mahruzlu kəndinin təməlini qoydu.

Prezident İlham Əliyev Zəngilan Konqres Mərkəzinin tikintisi ilə tanış olub. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Konqres Mərkəzinin layihələndirilən ərazisi 2,2 hektardır. Burada Mərkəzin binası ilə yanaşı, restoran, pavilyon da inşa olunur. Konqres Mərkəzi 605 yerlikdir. Buradakı restoranın isə 240 yerlik olması nəzərdə tutulub. Bu ərazidə müvafiq yaşıllıq zonaları salınacaq, avtomobillər üçün yerüstü parklanma sahəsi yaradılacaq.

Azərbaycan Prezidenti İlham Əliyev mayın 4-də "Azərenerji" ASC-nin Zəngilan rayonunda "Sarıqışlaq" Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verib.

Bildirildi ki, Araz çayının sol qolu olan Oxçuçayın üzərində yerləşən stansiyanın qoyuluş gücü 10,5 meqavatdır. Su Elektrik Stansiyasında orta illik elektrik enerjisi istehsalı 26,7 milyon kilovat-saat nəzərdə tutulur.

Qeyd olundu ki, yeni stansiya binasının tikintisi, perimetr boyu hasarlama işləri yekunlaşıb. Maşın zalı, aqreqatlar, generatorlar, idarəetmə panelləri, rele mühafizəsi, avtomatika və idarəetmə panellərində məsafədən idarəetmə kompüterlərinin quraşdırılması üzrə işlər icra edilir. Həmçinin "Şayıflı" Kiçik Su Elektrik Stansiyasından çıxan suyun "Sarıqışlaq" SES-ə ötürülməsi məqsədilə nəzərdə tutulmuş derivasiya borusunun çəkilməsi üzrə işlər davam edir. Derivasiya tipli su elektrik stansiyasının suqəbuledicisi ilə stansiyaarası məsafə 5239 metrdir. "Sarıqışlaq" SES-in turbinlərindən keçən suyun heç bir itki olmadan "Zəngilan" KSES-ə ötürülməsi istiqamətində işlər davam etdirilir.



Bu stansiyada 110 kilovoltluq açıq paylayıcı qurğunun tikintisi, istehsal olunacaq elektrik enerjisinin enerjisistemə inteqrasiyası və stansiyada avtomatik idarəetmə sisteminin qurulması da nəzərdə tutulub. Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Sarıqışlaq" SES-də il ərzində 33,2 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Dövlətimizin başçısına Zəngilan, Laçın və Kəlbəcər rayonlarında tikilən Su Elektrik stansiyaları barədə də məlumat verilib.

Dünən Prezident İlham Əliyev 330 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyasının açılışını edib. Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib.

Qeyd edək ki, ötən il mayın 26-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan-Türkiyə-Avropa Enerji Dəhlizi Layihəsi çərçivəsində təməli qoyulan 330/110 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyası və ikidövrəli olmaqla 132 kilometr məsafədə 330 kV-luq "Ağcabədi-Cəbrayıl" ötürmə xətti "Azərenerji" tərəfindən rekord müddətdə - bir ildə tikilib və 330 kV-luq "Ağcabədi" yarımstansiyası müasir texnologiyalar əsasında tam yenidən qurulub. Dövlətimizin başçısı "Cəbrayıl" qovşaq yarımstansiyasını işə salıb. Bildirildi ki, üçmərhələli ölkələrarası enerji layihəsini həyata keçirmək üçün "Cəbrayıl" enerji qovşağında tikilən 330 və 110 kV-luq açıq paylayıcı qurğularda əlavə ehtiyat yuvalar yaradılıb. Eyni zamanda, burada avtomatik açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və digər proseslər üçün Rəqəmsal İdarəetmə Mərkəzi tikilib.

Bundan başqa Zəngilanda otel kompleksinin təməlqoyma mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına kompleksin layihəsi barədə məlumat verdi.

Bildirildi ki, Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Otel müasir səviyyədə inşa olunacaq, rayona səfərə gələnlərin rahatlığı üçün burada hər cür şərait yaradılacaq.

Diqqətə çatdırıldı ki, 110 nömrədən ibarət olacaq otel binasında konfrans, iclas və banket zalları, fitnes və spa mərkəzləri, qapalı və açıq hovuzlar, restoran və uşaq əyləncə mərkəzləri yaradılacaq. Otel kompleksinin ərazisində, həmçinin 15 kottec də qonaqların istifadəsinə veriləcək. Bir sözlə, müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi otel kompleksi müasir standartlar səviyyəsində inşa olunacaq. Sonra Prezident İlham Əliyev otel kompleksinin təməlini qoyub.

# Heydər Əliyevin arzularını geçəkləşdirən Qalib Lider!

**"Heydər Əliyevin ən böyük arzusu Şuşanı azad görmək idi. Biz onun bu arzusunu reallaşdırdıq. Biz bununla fəxr edirik, xoşbəxtik. Bütün azərbaycanlılar - təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya azərbaycanlıları bizim Qələbəmizlə fəxr edirlər". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib. Dövlət başçısı bildirib ki, bu Qələbə ədalətin, tarixi ədalətin və beynəlxalq hüququn Zəferidir.**



İLHAM ƏLİYEV: "Heydər Əliyevin ən böyük arzusu Şuşanı azad görmək idi, biz onun bu arzusunu reallaşdırdıq"

### ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV: "Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm"

"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu, sadəcə, Heydər Əliyevin taleyüklü məsələləri inandığı bir insana həvalə etməsi deyildi. Burada dahi liderin uzaqgörənliyi də aydın sezilir. Ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində əksini tapan bu fikirlər Prezident İlham Əliyevin son 19 ildə gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası bugünkü qələbəmizə bələdçilik edir: bugünkü qələbənin məntiqi əsası, bünövrəsi və onu yaradan fəlsəfə Heydər Əliyevin fəaliyyətinin məhsuludur.





Bəli, Müzəffər Ali Baş Komandan, Böyük Sərkərdə, Prezident İlham Əliyevin 19 illik gərgin əməyinin nəticəsində formalaşan güclü Ordumuz 30 il işğal altında qalan torpaqlarımızı 44 gün ərzində azad etdi, ölkəmiz öz ərazi bütövlüyünü təmin etdi. "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən ulu öndər Heydər Əliyevin arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı. Və İkinci Qarabağ savaşını "Dəmir yumruq"la qazanan Ali Baş Komandan İlham Əliyev "dəmir iradə" ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır: "Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!".

### PREZİDENT İLHAM ƏLİYEV: "Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

Bəli, bu gün Ali Baş Komandan, Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa İli" elan etməsi və görülən işlər də məhz ulu öndər Heydər Əliyevin Azərbaycanın güclü olması arzusunun reallığıdır. Sözü imzası qədər qüvvətli və keçərli olan Qalib Lider, Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Artıq tariximizin qürur doğuran səhifələri yazılır. İndi Füzuli, Şuşa, Laçın, Kəlbəcər də, Ağdam da azaddır və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur, artıq Xarı bülbül boynunu bükməyib. Və bu günün reallıqlarını bütün dünya görür. Təsadüfi deyil ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzaladı. Azərbaycan Prezidenti bildirmişdir ki, Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir".

Bu gün Şuşa artıq inkişaf, quruculuq yolundadır. Qeyd edək ki, Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz ulu öndərin təşəbbüsü ilə qəbul edilib. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət alıb, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Bu gün isə işğaldan azad edilmiş Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın yenidən dirçəlməsi istiqamətində möhtəşəm işlər görülür. Şuşanın Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı, Vaqif Poeziya Günlərinin keçirilməsi ənənəsi bərpa edildi. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddət ərzində Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Sevindiricidir ki, ümummilli liderin ən ümdə arzusunun həyata keçməsi Qələbəmizin üçüncü ilində keçirilir. İndi Azərbaycan iqtisadi inkişaf tempinə görə öndədir. Dünyada əhəmiyyətli regional layihələrin təşəbbüskarı və iştirakçısıdır. Dövlət başçımız cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün ulu öndər Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".

### HEYDƏR ƏLİYEV HƏMİŞƏ AZƏRBAYCAN XALQININ MARAQLARINI QORUYAN BİR ŞƏXS OLUB

Prezident İlham Əliyev mayın 3-də Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında bildirib ki, Heydər Əliyev həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxs olub və bunu zamana, siyasi vəziyyətə baxmayaraq edib.

Dövlətimizin başçısı deyib ki, Sovet Azərbaycanı dönəmində hətta ideoloji əngəllər çərçivəsində Ulu Öndər Azərbaycan xalqının maraqlarını qoruyurdu, milli kimliyimizi saxlaya bilməyimiz üçün əlindən gələni etməyə çalışırdı. 70-ci illərdə və 80-ci illərin əvvəlində Heydər Əliyev tərəfindən atılmış bir çox addımlar Azərbaycanın müstəqilliyinə hədəflənmişdi. Prezident İlham Əliyev vurğulayıb ki, Ulu Öndərin xatirəsinə həsr olunmuş tədbirlər il ərzində davam edəcək.

Bəli, bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Ruhun şad olsun ulu öndər, Qarabağ Azərbaycandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəsində "Dağlıq Qarabağ" problemi yoxdur!.

Və 2022-ci il "Şuşa ili"ndən 2023-cü ilin "Heydər Əliyev ili" elan etməsi ilə bağlı dövlətimizin başçısı demişdir: "Mən bu ili "Şuşa İli" elan etmişdim. Şuşanın 270 illiyini biz çox geniş və böyük təntənə ilə qeyd etdik. Gələn il isə "Heydər Əliyev İli" elan edilib. Gələn il biz Ulu Öndərin 100 illik yubileyini qeyd edəcəyik. Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb".

***RƏFİQƏ KAMALQIZI***

# ERMƏNİSTAN TƏLAŞ İÇİNDƏDİR!

## Vaşinqton danışıqlarına görə düşmən ölkədə çaxnaşma yaranıb



**Vaşinqtonda xarici işlər nazirləri səviyyəsində Ermənistan-Azərbaycan danışıqlarının növbəti raundunun ilkin nəticələri hələ ictimaiyyətə məlum olmasa da bu danışıqlara görə İrəvanda yaranan təlaş barədə demək olar ki, hamı məlumatlıdır. Çünki məhz həmin danışıqlara görə erməni cəmiyyətində yaranan qalmaqal sözsüz ki, diqqətdən yayına bilməz.**

İşğalçı ölkədə qalmaqalın yaranmasına səbəb məsələyə absurd və eyni zamanda məntiqsiz yanaşma hesab olunur. Vaşinqton danışıqlarında iştirak edən nümayəndə heyətinin tərkibində erməni müxalifətinin arzulamadığı bir nəfərin iştirakı bu ölkədə müzakirə mövzusuna çevrilib və hətta mənasız yerə ciddi şəkildə narazılıqla qarşılanıb. Daha dəqiq desək, Ermənistan nümayəndə heyətində Milli Məclisin vitse-spikeri Ruben Rubinyanın olması erməni müxalifətində əməlli-başlı qıcıq doğurub və Köçəryanın "Ermənistan" fraksiyasından olan deputat Qeqam Manukyanın bununla bağlı dediyi absurd fikirlər həmin ölkənin təlaş içində olduğunu təsdiq edir. Bəli, bilirik ki, Rubinyan Ermənistan-Türkiyə münasibətlərinin nizamlanması üzrə Ermənistanın xüsusi nümayəndəsidir, amma bu həmin təlaşın yaranması üçün əsas deyil axı. "Sual olunur ki, Ruben Rubinyan Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında Vaşinqton danışıqlarında hansı şəraitdə, hansı məqsədlə və hansı statusda iştirak edir? Ermənistan-Türkiyə münasibətləri Ermənistan-Azərbaycan danışıqlarına daxildirmi və bu iki məsələ bir-biri ilə bağlıdırmı?", deyə Manukyan "odlu-alovlu" çıxış edib və görünür bir dəlinin bir quyuya atdığı daşı çıxarmağa yüz olmasa da, bircə ağıllı da tapılmayıb Ermənistanda.





Qeqam Manukyanın bu absurd açıqlamasında məntiqi olacaq heç nə yoxdur. Bu açıqlamada nəyin, hansı fikrin irəli sürüldüyünü, onun hansı məqsəd daşıdığını müəyyən etmək də asan deyil, amma Manukyan niyyətini, özünü nə qədər gizlətsə də çoldə qalan quyruğu onu ələ verir. "Ermənistan hakimiyyəti Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə münasibətlərinin "həll edilməsini" hansısa formada əlaqələndirirmi, daha doğrusu, Türkiyənin növbəti şərtinə tabe olurmu? Türklər 1991-92-ci illərdən bəyan edirdilər ki, Ermənistan-Azərbaycan münasibətləri "həll olunmayana" qədər Ermənistan-Türkiyə münasibətləri normallaşa bilməz və biz görürük ki, Ermənistan hakimiyyəti bir daha Türkiyənin tələblərinə boyun əydi", deyən Manukyanın ardınca onun fraksiyadakı silahdaşı Artur Xaçatryan da absurd şəkildə öz yanaşmasını ortaya qoyub. Deməli, artıq işğalçı ölkədə bununla, məhz danışıqlarla bağlı bir təlaş var.

Danışıqlarla bağlı Ermənistandakı təlaş heç də anlaşılan deyil, çünki yanaşmaları məntiqdən çox uzaqdır. Sözsüz ki Vaşinqtondakı danışıqlardan sonra tərəflərin müəyyən bəyanat qəbul edə biləcəyi istisna edilmir. Bir halda ki, iki ölkə arasında danışıqlar gedir, deməli, müvafiq olaraq ikitərəfli münasibətlərə dair məsələlərdən danışılmalıdır. Yaxşı bəs ermənilərin Türkiyə ilə bağlı narahatlıqları nədən qaynaqlanır və nəyə görədir? Deyək ki, Türkiyənin Azərbaycana hipotetik olaraq hətta "lazım olmayan" çox sərt şərti olsa belə, bu, istənilən halda Ermənistan-Azərbaycan nizamlanması formatına uyğun olacaq. Eyni zamanda, axı Azərbaycan tərifi Türkiyənin yerinə nəsə imzalaya da bilməz. Bəli, biz bir xalqıq, amma nəzərə almaq lazımdır ki, eyni zamanda iki dövlətik. Belə olan halda isə erməni deputatlar ancaq Türkiyə ilə yaxından tanış olan və danışıq aparacaq birinin olacağına yalnız sevinməli idilər. Bir sözlə, erməni deputatlar Rubinyanın danışıqlarda iştirakını yalnız alqışlamalı olacaqları halda, buna ağız büzürlər.

Ola bilsin ki, Rubinyana "hücum edən", nümayəndə heyətinin tərkibində olmasına narazı deputatlar onun Türkiyə ilə münasibətlərin normallaşmasında maraqlı olmasına görə onu hədəfə alıblar və yəqin elə düşünürlər ki, Rubinyan Ermənistanın maraqlarına xəyanət edəcək. Yenə də absurd yanaşmadır, çünki Rubinyan, onların dili ilə desək, "xəyanətkar" hökumətin sifarişini yerinə yetirsə də, yetirməsə də, bu hökumətin öz nümayəndə heyətinin fərqli tərkibi ilə də "Türkiyə tələblərinə boyun əymək" şansı əlindən alınmır. Əksinə, Türkiyə ilə yaxından tanış olan şəxsin danışıqlarda iştirakı Ermənistanın mövqelərini gücləndirə bilər və bu məqam, həm də nümayəndə heyəti daxilində hansısa maraqların toqquşmasının ola biləcəyi hal sayılmır. Rubinyan həm Türkiyə, həm də Azərbaycanla danışıqlarda Ermənistan hakimiyyətini təmsil edir və müəyyən mənada Ermənistanın maraqlarını qorumalıdır. Opponentlərin məntiqindən belə çıxır ki, Ermənistanın baş naziri Azərbaycanla danışıqlar aparırsa, o zaman onun Türkiyə prezidenti ilə görüşməyə ya haqqı çatmır, ya da buna icazə verilmir və bu yanaşma özü belə həddindən artıq absurddur.

Ötən əsrin sonlarından, yəni Azərbaycan torpaqlarını ermənilərin işğal etməsindən sonra Türkiyə ilə münasibətlər, sərhədlərin açılması Ermənistan cəmiyyətində hər zaman müzakirə mövzusu olub və indi də bu mövzu öz aktuallığını qoruyub saxlayır. Ermənistan bütün vasitələrdən istifadə edərək, Türkiyə ilə sərhədləri açmağa hər zaman çalışdığı kimi, indi də bu məsələdə maraqlıdır və hansısa dövlətlərin belə bu məsələdə köməyindən istifadə etmək üçün əldən-ayaqdan gedir. Ona görə ki, quru sərhədlərinin açılması Ermənistan üçün, bu ölkənin xarici ticarətinin şaxələndirilməsi üçün olduqca vacib hesab olunur. Bunun əhəmiyyətini anlamaq üçün isə hansısa ermənınin qeyri-adi ağıl sahibi olmasına da ehtiyac yoxdur. Çünki hər biri başa düşür ki, əvvəla hava yolu ilə yükdaşımaların həcmi çox azdır. Digər tərəfdən də axı hava yolu ilə olan daşımalar quru ilə, yerüstü yolla olan daşımalardan dəfələrlə çox baha başa gəlir həmin ölkəyə. Buradan belə bir nəticə hasil olur ki, nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması Ermənistan üçün ən aktual məsələdir. Elə isə bu aktual məsələnin həlli üçün rəsmi İrəvan hansısa addımlar atırmı? Yaxud, Ermənistan tərəfi ümumiyyətlə, bu istiqamətdə sistemli bir həll yolunu tapıbmı, ya bu yolu tapmaq barədə düşünürmü?

Kommunikasiyaların açılması hər bir ölkə üçün, eləcə də Türkiyə üçün olduqca əhəmiyyətli, olduqca faydalıdır. Bu, Türkiyə tərəfi üçün də bəlli məsələdir və bunu hamı çox yaxşı başa düşür. Amma məsələ yalnız faydadan getmir. Türkiyə bir qardaş ölkə olaraq ilk növbədə Azərbaycanın maraqlarını da nəzərə alır. İlk növbədə Türkiyənin Azərbaycana prinsipial dəstəyi burada həlledici rol oynayır. Özünün strateji müttəfiqi olan Azərbaycanın ərazi bütövlüyünü tanımayan bir ölkəyə Türkiyənin hansısa bir formada güzəştə gedəcəyi mümkünsüzdür. Bunu elə rəsmi İrəvan da yaxşı başa düşür. Yaxşı başa düşür ki, Azərbaycanın ərazi bütövlüyünü tanımadığı halda, sülh müqaviləsi imzalanmadığı halda Türkiyə ilə kommunikasiyalara ümid etməyə dəyməz. Bu baxımdan da Vaşinqton danışıqlarında həmin ölkənin Milli Məclisinin vitse-spikeri, Ermənistan-Türkiyə münasibətlərinin nizamlanması üzrə Ermənistanın xüsusi nümayəndəsi Ruben Rubinyanın olması Ermənistanda müzakirə mövzusu olub, hətta erməni müxalifətini qıcıqlandırıb. Buradan belə bir nəticə çıxır ki, deməli, ermənilər nə Azərbaycanın ərazi bütövlüyünü tanımaq, nə də sülh sazişinə razılaşmaq fikrindədirlər, baxmayaraq ki, başqa çıxış yolları yoxdur və bunu baş nazir Nikol Paşinyan da rəsmi şəkildə etiraf edib. Amma görünən odur ki, erməni cəmiyyəti, xüsusilə də bu ölkənin müxalifəti onun bu etirafını da, mövqeyini də qəbul etməyib, heç hesaba belə almır. Bir sözlə, Ermənistan-Türkiyə münasibətlərinin nizamlanması üzrə xüsusi nümayəndə olan Rubinyanın Vaşinqton danışıqlarında iştirakından ermənilər xoflanıblar və təlaş da buna görədir.

İndi erməni cəmiyyətinin keçirdiyi təlaş anlaşılır və belə məlum olur ki, nə danışıqlar, nə də hansısa nəticələrin əldə edilməsi, başda Köçəryanın "Ermənistan" bloku olmaqla, həmin ölkənin müxalifətini qətiyyən qane etmir, onlar buna qarşıdırlar və istər Azərbaycan, istərsə də Türkiyə ilə razılıqların əldə olunacağını məhz Ermənistan-Türkiyə münasibətlərinin nizamlanması üzrə xüsusi nümayəndə olan Rubinyanın Vaşinqton danışıqlarında şahidliyi ilə olmasını istəmirlər. Düzdür, bu düşüncə, bu yanaşma olduqca gülünc görünür və kimin harada olması, hansı danışıqlarda iştirak etməsi heç bir məna kəsb etmir, bu çox xırda detallardır. Amma diqqətin danışıqlar prosesinə deyil, xırda detallara yönəldilməsi təsdiq edir ki, Ermənistan cəmiyyətində inamsızlıq yaratmaq üçün istənilən bəhanəyə əl atılır və yenə də çirkin niyyətlərlə hansısa divident əldə etməyə mənasız şəkildə ümid edilir. Açıq-aşkar şəkildə görünür ki, Vaşinqton danışıqlarına görə Ermənistan cəmiyyəti təlaş içərisindədir və absurd yanaşmaları ilə axmaqlıqlarını, ağılsızlıqlarını növbəti dəfə ortaya qoyanlar əslində, ən çox Azərbaycanın üstünlüklərinə görə, danışıqlar prosesində qalib tərəf olaraq iştirakına, söz sahibi olmasına və diplomatik qələbələrinə görə narahatdırlar.

***İnam Hacıyev***

# Ağdamın işıqlı gələcəyi: görülən işlər və hədəflər

**27 il sonra işğaldan azad olunan Ağdam öz haqqına qovuşdu. Ağdam rayonunun işğaldan azad olunması 2020-ci ilin noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin noyabrın 20-də xalqa etdiyi müraciətdə Ağdam rayonunun işğaldan azad olunmasının tarixi hadisə olduğunu bildirmişdir. "Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız", - deyən Cənab Prezident bildirib ki, biz tarix yazırıq, yeni tarix: "Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir".**

Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır, Tərtərin Talış kəndinə köç yola salındı. İnsanların doğma yerlərdən səsləri eşdilir. Həmin ərazilərin hər bir daşı, qayası, çayı bu səslər üçün qəribsəmişdi. Tezliklə Ağdam şəhəri də yenidən qurularaq, öz əzəli sakinlərini qoynuna alacaqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfərləri və burada yeni müəssisələrin təməllərinin qoyulması tezliklə Ağdamın müasir bir məkana çevriləcəyindən və sakinlərinin əzəli torpaqlarına qayıdacağından xəbər verir. Səfərlər çərçivəsində dövlətimizin başçısının görülən işlərlə tanışlığı və yeni təməllərin qoyulması, tapşırıq və göstərişlərin verilməsi Ağdamın tezliklə qurulmasının göstəricisidir.







## AĞDAMDA MÜASİR TİPLİ MƏRKƏZ - RƏQƏMSAL İDARƏETMƏ MƏRKƏZİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna növbəti səfəri bu ərazidə görülən işlərin daha sürətli reallaşmasının təzahürüdür. Səfər çərçivəsində dövlət başçısı "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlin qoyub. Rəqəmsal İdarəetmə Mərkəzi şəhərin müxtəlif təyinatlı infrastrukturunun elektrik enerjisinə tələbatını ödəməklə yanaşı, təchizat sxeminə daxil olan şəbəkələrin real vaxt rejimində və rəqəmsal formatda idarə olunmasını təmin edəcək. Müasir tipli mərkəz vasitəsilə ətraf ərazilərin də elektrik enerjisi ilə təchizatının etibarlılığına və dayanıqlılığına nəzarət təmin olunacaq. Təlim-Tədris Kompleksində isə beynəlxalq tədbirlərin keçirilməsi üçün lazımi şərait yaradılacaq. Dövlətimizin başçısına işğaldan azad olunmuş ərazilərdə "Azərişıq" ASC tərəfindən paylayıcı elektrik şəbəkəsinin qurulması istiqamətində görülmüş işlər barədə də məlumat verildi. Ağdam rayonu ərazisində yerləşən infrastruktur və strateji obyektlərin ilkin mərhələdə elektrik təchizatı üçün 28 kilometr məsafədə 10 kV-luq hava elektrik verilişi xətləri çəkilib, 7 ədəd müxtəlif gücdə komplekt transformator məntəqəsi quraşdırılıb. Hazırda isə 35 kV-luq "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının tikintisi və bu yarımstansiyaların qidalandırılması üçün 35 kV-luq kabel xətlərinin çəkilməsi işləri görülür. Kəlbəcər rayonu üzrə dayanıqlı elektrik təchizatı üçün 31 kilometr uzunluğunda 110 kV-luq hava xətti çəkilib, 110/35/6 kV-luq Daşkəsən yarımstansiyası yenidən qurularaq, 33,7 kilometr uzunluğunda 110 kV-luq hava xətləri bərpa edilib. Hazırda 35/0,4 kV-luq "Kəlbəcər" yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq "Çaykənd-Zod" kabel xəttinin çəkilməsi işləri aparılır. Laçın rayonunda da bir çox işlər görülüb, o cümlədən Azərbaycan-Ermənistan şərti dövlət sərhədi istiqamətində qurulan sərhəd-keçid məntəqəsini elektrik enerjisi ilə təmin etmək üçün 1,8 kilometr uzunluğunda 0,4 kV-luq kabel xətləri çəkilib və 160 kVA gücündə 2 transformator quraşdırılıb.

## MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİ YAŞADAN MUĞAM MƏRKƏZİ

Dövlət başçısının və Birinci xanım Mehriban Əliyevanın Ağdam Muğam Mərkəzinin təməlini qoymaları görülən işlərin davamıdır. Mədəniyyətimizin vizit kartı muğam, eyni zamanda, xalqımızın malik olduğu milli mədəniyyətin koloriti, hər birimizin mənəvi və ruhi qidasıdır. Bütün azərbaycanlıların həyat hekayətinə çevrilən muğamın təbliğinə son illərdə istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda dövlət səviyyəsində yüksək diqqət və qayğı göstərilir. Muğamın yaşaması, dünyada layiqincə təbliği və gələcək nəsillərə ötürülməsi baxımından son dövrlərdə yaradılan muğam mərkəzlərinin müstəsna əhəmiyyəti var. Artıq dünya ölkələrində Azərbaycan muğamı birmənalı olaraq qəbul edilmiş, dünyanın mədəni irs siyasında nadir əsər tək qorunur və təqdim olunur. Muğam sənəti Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə, Azərbaycan xalqının mədəni ənələrində və tarixində dərin köklərə malikdir. Bu mədəni ənənənin Azərbaycanda köklərinin olması ölkədə onun daşıyıcılarının sayı, eləcə də onun Azərbaycan bəstəkarlarının, rəssamlarının, heykəltəraşlarının və şairlərinin tükənməz ilham mənbəyi olan milli mədəniyyətdə mühüm rolu ilə təsdiqlənir. Muğam sənəti azərbaycanlılar tərəfindən milli özünüdərk və özünü eyniləşdirmənin əsasını təşkil edən başlıca mədəni dəyərlərdən biri kimi qavranılır. Bəşəriyyətin şifahi və mənəvi irsinin incilərindən olan muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən son illərdə görülən sanballı işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da layiqli töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə UNESCO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf etdi. Muğam UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına salınıb. Son illərdə muğam müsabiqələrinin keçirilməsi bu əvəzsiz sənət incisinin yaşadılması istiqamətində mühüm hadisə kimi tarixə düşüb. Milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin təbliği sahəsində həyata keçirilmiş layihələr arasında Azərbaycan muğamının dünyada geniş təbliği məqsədi ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması önəmli yer tutur. Regionlarda da Muğam Mərkəzlərinin yaradılmasına dəstək verən Heydər Əliyev Fondunun təşəbbüsü ilə Ağcabədi şəhərində Qarabağ Muğam Mərkəzi inşa olunmuşdur. Daha sonra Fondun təşəbbüsü ilə Bakıda Müasir İncəsənət Muzeyi açılmışdır. Azərbaycan milli musiqi mədəniyyətinə görkəmli muğam ifaçıları bəxş etmiş Ağdam rayonunda Muğam Mərkəzinin inşası işğaldan azad olunmuş ərazilərimizdə digər sahələr kimi, mədəniyyətin də sürətlə dirçəldilməsi istiqamətində ardıcıl işlərin görüldüyünü göstərir.

## AĞDAMDA BAŞ PLANA UYĞUN SALINAN YAŞAYIŞ MƏHƏLLƏLƏRİ

Bildiyimiz kimi, Ağdamda Xıdırlı kəndinin dövlət başçısı tərəfindən ötən il təməli qoyulmuşdur. Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 160 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır.

Rayondan 6 kilometr məsafədə yerləşən Kəngərli kəndin də təməli qoyulmuşdu. Burada 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 66,2 hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulur. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 290 fərdi evin inşa edilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı bir sıra müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 1182 nəfərin işlə təmin olunması nəzərdə tutulur. Artıq bir neçə gündən sonra - oktyabrın 10-da hər iki kəndin tikinti işlərinə başlanılacaq. Kəndlərdə tikinti işlərinin 2024-cü il aprelin 10-da tamamlanması nəzərdə tutulur.

Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir.

Mayın 2-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq 2-ci yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər. Ümumi sahəsi 14 hektara yaxın olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Mənzillərdən 114-nün birotaqlı, 464-nün ikiotaqlı, 536-nın üçotaqlı, 154-nün isə dördotaqlı olması planlaşdırılır.

Məhəllədəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur. Bütün binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii inşaat materiallarından istifadə olunacaq.

Elə həmin gün Ağdam şəhərində salınacaq 3-cü yaşayış məhəlləsinin təməlinin qoyulması da bu şəhərin parlaq və işıqlı gələcəyinindən xəbər verir. Dövlətimizin başçısına və xanımına Ağdam şəhər 1 saylı məktəbin yeni binasında tikinti işlərinin gedişi barədə məlumat verilib.burada 960 şagird yerlik bu məktəbdə təhsil üçün hər cür şərait yaradılacaq. Qeyd edək ki, bu məktəbin binasının təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Fəaliyyətə 1883-cü ildə başlayan bu təhsil ocağı Qarabağ bölgəsinin ən qədim məktəbidir. Bütün bunlala yanaşı, Prezident İlham Əliyevin Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olması, eləcə də Ağdam şəhərində tikiləcək inzibati binanın təməlinin qoyulması, Ağdamın müasir infrastrukturla təmini və yenidən qurulması onun gələcək işıqlı gələcəyinə hesablanılıb. Qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Heydər Əliyev-100

## Güclü Azərbaycan Ulu Öndərin şah əsəridir!

“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində mayın 4-də YAP Şabran rayon təşkilatı tərəfindən tədbir keçirilib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb.





Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov bildirib ki, dövlət müstəqilliyi fenomenal şəxsiyyət Heydər Əliyevin bizə bəxş etdiyi milli sərvətdir. Bu sərvətin dəyəri illər keçdikcə daha dərindən dərk olunur. Müstəqilliyimizin ilk illərində Azərbaycan böyük faciələrlə, çətinliklərlə üz-üzə qalsa da, 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı və davamlı uğurlara yol açılması bu gün harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı tərəfindən böyük qürur hissi ilə xatırlanır, gələcəyimizin daha parlaq, işıqlı olacağına böyük əminlik yaradır.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru, professor Dilarə Seyidzadə Azərbaycan dövlətçiliyinin söykəndiyi təməl prinsiplərin Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən olunduğunu diqqətə çatdırıb. Söyləyib ki, dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada dayanan Ümummilli Lider Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynayıb. Münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük İkinci Qarabağ müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirdi.



Tədbirdə çıxış edən YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov Ulu Öndərin torpaq, Vətən sevgisindən irəli gələn addımlarından, dövlətimiz, xalqımız qarşısında xidmətlərindən geniş bəhs edərək bildirib ki, dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan ümummilli lider Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycanın dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir.

Şəhid Seyfəddin Balağayevin anası Besxanım Balağayeva və Vətən müharibəsi iştirakçısı Murad Bayramov çıxış edərək Ulu Öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısında müstəsna xidmətlərindən, Onun siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən bəhs ediblər. Bir daha qeyd olunub ki, güclü, qüdrətli, qalib Azərbaycan hər birimizin qürur mənbəyidir.

Sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərmanlar, partiya sıralarına yeni qoşulan gənclərə isə üzvlük vəsiqələri təqdim edilib. Sonda xatirə şəkili çəkdirilib.

## Çoxəsrlik dövlətçilik tariximizin şanlı qürur səhifələri

**“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində mayın 4-də YAP Beyləqan rayon təşkilatı Beyləqan rayon Mədəniyyət Sarayında ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan tədbir keçirib.**

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb. Tədbirdə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

Çıxış edən YAP Beyləqan rayon təşkilatının sədri Müşfiq Səfərov bildirib ki, Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri əvəzsizdir. Ümummilli Liderin hakimiyyətinin hər iki dövrü Azərbaycan dövlətinə, xalqına xidmət nümunəsidir. Ulu Öndər hakimiyyətdə olduğu illərdə Azərbaycanı ictimai-siyasi, sosial-iqtisadi və mədəni cəhətdən inkişaf etmiş bir ölkəyə çevirib. Azərbaycanın sürətli inkişafı məhz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin gərgin əməyi və qətiyyətli siyasəti sayəsində yeni, müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur. Dahi şəxsiyyətin Azərbaycana rəhbərlik etdiyi dövr çoxəsrlik dövlətçilik tariximizin ən şanlı səhifələrindəndir.







Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev diqqətə çatdırıb ki, ümummilli lider Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Dahi şəxsiyyətin dövlətimiz, xalqımız qarşısında xidmətlərindən bəhs edərkən Onun hər kəsə Vətəni sevməyi öyrətməsi xüsusi vurğulanır, çünki atılan bütün addımların əsasında dövlət, xalq sevgisi, Ulu Öndərin canından artıq sevdiyi Azərbaycanın imzasını imzalar arasında görmək istəyi dayanırdı.

YAP Veteranlar Şurasının sədri, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev deyib ki, milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Dünya tarixi sübut edib ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi onların mənsub olduqları xalqın, yaratdıqları dövlətin həyatında əvəzedilməz rola malikdir. Heydər Əliyev gərgin fəaliyyəti və müstəsna xidmətləri ilə Azərbaycana möhtəşəm nailiyyətlər qazandırıb.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Elnur Sadıqov vurğulayıb ki, Azərbaycanın bugünkü hərtərəfli inkişafı Ulu Öndər Heydər Əliyevin bütün sahələrə göstərdiyi diqqət və qayğının nəticəsidir. Ümummilli Lider hələ hakimiyyətinin birinci dövründə Azərbaycanın müstəqil gələcəyini düşünərək yüksək ixtisaslı kadrların yetişdirilməsini qarşıya əsas hədəf kimi qoymuşdu. O zaman minlərlə Azərbaycan gəncinin keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərinə göndərilməsi gələcəyə hesablanmış addımlar sırasındadır.

Çıxış edən Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Hidayət Cəfərov Ümummilli Liderin xalqımız qarşısında misilsiz xidmətlərindən danışıb. O qeyd edib ki, Heydər Əliyev ideyaları müasir müstəqil Azərbaycanın tərəqqisinin əsaslarını təşkil edir və xalqımızın milli sərvətidir.

Digər çıxış edənlər - şəhər 3 saylı ərazi partiya təşkilatının sədri Sahibxan Mədətov, akademik Mehdi Mehdizadə adına şəhər 3 saylı tam orta məktəbin tarix müəllimi Mətanət Əliyeva və Mayak qəsəbə ərazi partiya təşkilatının sədri Elçin Məmmədov bildiriblər ki, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan hər birimizin qürur mənbəyidir. Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərmanlar, YAP sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim edilib.

# Heydər Əliyev-100

# "Tarix yazan Böyük Şəxsiyyət"

## Bu mövzuda "Səs" qəzetində dəyirmi masa keçirildi



**(əvvəli ötən sayımızda)**

"Səs" qəzetinin redaksiyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Tarix yazan Böyük Şəxsiyyət" adlı dəyirmi masa keçirildi. Dəyirmi masada Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, AMEA-nın müxbir üzvü, professor Amin İsmayılov, YAP Təftiş Komissiyasının üzvü, millət vəkili Elman Nəsirov, YAP Pirallahı rayon təşkilatının sədr müavini Məcid Əhmədov, tarixçi alim İlyas Hüseynov və Azadlıq Hərəkatçıları Birliyinin sədri Təhmasib Novruzov iştirak edirdilər. Dəyirmi masanı giriş sözü ilə açan "Səs" qəzetinin əməkdaşı Vəli Vəliyev ənənəvi olaraq "Səs" qəzetinin ölkəmizin ictimai-siyasi, mədəni həyatında baş verən hadisələrlə bağlı dəyirmi masalar keçirdiyini diqqətə çatdırdı. Qeyd etdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "2023-cü ilin Heydər Əliyev ili" elan olunması və Ulu Öndərin 100 illik yubileyi münasibəti ilə redaksiyamızda silsilə olaraq dəyirmi masalar keçirilir. "Səs" qəzeti olaraq cəmiyyətdə nüfuz sahibi olan bir neçə ziyalının iştirakı ilə Ulu Öndərin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və formalaşdırılması istiqamətində gördüyü mühüm işlərə bir daha nəzər salmağa qərar verdik, - deyən qəzetin əməkdaşı Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, sosial-siyasi həyatda tərəqqinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu söylədi. O, Ulu Öndər Heydər Əliyevin Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxararaq uzaqgörənliyi, fədakarlığı, müdrikliyi ilə müstəqil dövlətimizin təməlini möhkəmlətdiyini diqqətə çəkdi: "Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb. Azərbaycanı, Azərbaycan xalqını böyük bəladan, dəhşətli fəlakətdən Ulu Öndər Heydər Əliyev fenomeni, cəsarəti və müdrikliyi qoruyub-saxlayıb. Ulu Öndərin hakimiyyətə gəldiyi çətin ictimai-siyasi hadisələrlə müşahidə olunduğu o illərin canlı şahidi olmuş dəyirmi masa iştirakçılarının fikirlərini bölüşməsi yaxşı olardı".

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ZƏNGİN İRSİ BÜTÜN ZAMANLARDA ÖYRƏNİLMƏLİDİR

*TƏHMASİB NOVRUZOV:*

- Bildiyimiz kimi, Ulu Öndər Heydər Əliyevin - tarixi Şəxsiyyətin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı məlum Sərəncama əsasən, Azərbaycan Respublikasında "2023-cü il Heydər Əliyev İli" elan edildi. Azərbaycan dövlətini və xalqını dövrün ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş Ulu Öndər Heydər Əliyevin zəngin irsi, nəinki 2023-cü ildə, bütün zamanlarda öyrənilməli və təbliğ olunmalıdır. Aristotelin məşhur bir ifadəsi var: nə qədər ki, heç nə bilmirdim, elə bilirdim hər şeyi bilirəm. Hər şeyi öyrəndim, onda anladım ki, mən heç nəyi bilmirəm. Ulu Öndər Heydər Əliyev kimi şəxsiyyəti tanımaq üçün bizə onilliklər yox, yüz illər lazımdır ki, Onu dərindən dərk edək. Hələ sovet məkanında yaşadığımız illərdə SSRİ-nin ən nəhəng layihəsi olan Baykal-Amur Magistralının tikintisinin 1982-ci ildən dayandırılması məsələsi gündəmə gələndə də Sovet rəhbərliyində, məhz Heydər Əliyev buna qarşı çıxaraq, BAM-ın tikintisinə rəhbərliyin məsuliyyətini üzərinə götürür və uğurla bu makistralın tikintisini başa çatdırır. Bu barədə soruşanda Heydər Əliyev gülümsəyərək deyərdi: "Gedin, xəritəyə diqqətlə baxın, BAM bütövlükdə türk xalqalarının yaşadığı əraziləri əhatə edir və bu magistral burda yaşayan türk xalqları üçün həyati əhəmiyyətə malik qan damarı rolunu oynayır." Heydər Əliyev trk dünyası içində bir damar çəkdi və bilirdi ki, türk dünyası azad olacaq və azad yaşayacaqdır. Bu gün Baykal-Amur Magistralı türk dünyasını birləşdirir. Heydər Əliyev böyüklüyünü ifadə edən saysız faktlar var. Ötən əsrin 50-ci illərində Azərbaycan naminə gördüyü işlərə nəzər salsaq, Onun necə böyük Şəxsiyyət olduğunu bir daha görmüş olarıq.

Hələ SSRİ Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyi illərdə Sovet İttifaqı rəhbərliyi tərəfindən üç mindən artıq azərbaycanlının "vətən xaini"nin siyahısının Heydər Əliyevə verilməsi, onların axtarılıb tapılması və cəzalandırılması haqqında tapşırıq alması arxiv sənədlərində də əksini tapır. Lakin millətini canından da çox sevən və xalqının adına ləkə gətirə biləcək bu sənədlərdən onu xilas etməyi qarşısına məqsəd qoyan gənc xüsusi xidmət orqanı işçisi, Mehdi Hüseynzadə başda olmaqla həmin siyahıda olan neçə-neçə qəhrəman haqqında faktlar toplayıb, siyahının doğru tərtib edilmədiyinə sovet rəhbərliyini inandırır. Nəticədə "vətən xaini" adı ilə damğalanan həmin üç min nəfərə yaxın şəxsi və mənsub olduğu xalqı bu addan xilas edir. Sonradan, məhz Mehdi Hüseynzadə haqqında məşhur "Uzaq sahillərdə" romanının yazılması, eyniadlı filmin çəkilməsi, Bakının mərkəzində qəhrəmanın əzəmətli heykəlinin ucaldılması da birbaşa gənc DTK əməkdaşı Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə reallaşmışdır. Heydər Əliyev kimi Böyük Şəxsiyyət daim tədqiq olunmalıdır. 1969-cu ilin iyul ayında hakimiyyətə gələn Heydər Əliyev həmin dövrdən Azərbaycan xalqının tanınmış simalarını müdafiə etmişdir. Milli azadlıq hərəkatının əsasını hələ o illərdə qoymuşdur.

*İLYAS HÜSEYNOV:*

- Ölkəmizin hər bir guşəsində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər keçirilir. Heydər Əliyevin keçdiyi həyat yoluna, onun fəaliyyətnə nəzər salsaq görərik ki, böyük bir yol keçmişdir. Bu yol Azərbaycan dövlətçiliyinin əsaslarını yaratdı. Hələ Ulu Öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başladığı ilk gündən o zaman ən geridə qalmış respublikalardan biri sayılan Azərbaycanı qısa vaxt ərzində keçmiş İttifaqın ən qabaqcıl respublikaları səviyyəsinə yüksəltdi. Doğma xalqının böyük təəssübkeşi olan Ulu Öndər Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı. Həmin illər sovet Azərbaycanının tarixinə ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Ulu Öndər Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi Onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir.

Azərbaycan xalqının Xilaskar Oğlu Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı müstəqillik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf edirdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. XX əsrin 80-ci illərin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə malik olmaq arzusu, özünü açıqaydın büruzə verdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mübarizəsi, faktiki olaraq, 1988-ci ilin xalq hərəkatı ilə başladı. Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi böhranı aradan qaldırdı. Ölkədə qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatlar yoluna keçirilməsinə nail oldu. Azərbaycan xalqının Ulu Öndərin azərbaycançılıq ideyası ətrafında daha sıx birləşməsi ilə müstəqil Azərbaycan dövlətçiliyi daha da möhkəmləndi. Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin Müqaviləsi" imzalandı. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə, ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə, Avropanın və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu.

# Heydər Əliyev-100

Bu, Ümummilli Lider Heydər Əliyevin beynəlxalq nüfuzuna olan hörmətdən, Azərbaycanda sabit vəziyyətin və əlverişli investisiya mühitinin yaranacağına olan inamdan yaranmışdı. Həqiqətən də, ölkəmizdə uğurla inkişaf etdirilən neft strategiyası, neftlə bağlı əldə olunan nailiyyətlərimiz, bilavasitə Ulu Öndər Heydər Əliyev qətiyyətinin nəticəsidir və bu gün Onun kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycanda enerji sektorunda böyük nailiyyətlər əldə edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır. 1995-ci il 12 noyabrda müstəqil Azərbaycanın Konstitusiyası referendum yolu ilə qəbul edildi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, bilavasitə təşəbbüsü və müəllifliyi ilə hazırlanmış ilk milli Konstitusiya çağdaş dünyanın ən mütərəqqi konstitusiyalarından biri olmaqla, suveren dövlətçilik tariximizdə yeni mərhələ açdı, dövlət quruculuğu, iqtisadiyyat və ictimai-siyasi həyatda dinamik inkişafa güclü təkan verdi. Konstitusiyanın qəbulundan sonra ölkəmizdə hüquqi dövlət quruculuğu və insan haqlarının təmini sahəsində əhəmiyyətli dəyişikliklər baş verdi. Vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub - saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir.







## "AZƏRBAYCANIN GƏLƏCƏYİ SİZ GƏNCLƏRSİNİZ"

*MƏCİD ƏHMƏDOV:*

- Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Ölkəmizdə gənclərin potensialının düzgün istiqamətlənməsinə yönələn tədbirlər dövlətin uzaqgörən siyasətinin göstəricisidir. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Bu gün Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, həmçinin sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir. Bu sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Ulu Öndər gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşmış, Onun bu siyasəti müasir müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirmişdir.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. Gənclərdə bir canlanma baş verdi. Heydər Əliyevin "Azərbaycanın gələcəyi siz gənclərsiniz", - deməsi gənclərə ruh verdi. Ötən əsrin 90-cı illərinin əvvəlişlərində gənclərdə bir ruh düşkünlüyü var idi. Bunu Heydər Əliyev aradan qaldırdı. Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Bu ictimai-siyasi institut gənclər siyasətinin həyata keçirilməsində mühüm rol oynadı və gənclərin fəaliyyətində böyük dönüş yaratdı. Ümummilli Liderin Gənclər Forumunun təşkili ilə bağlı 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq, Azərbaycan gənclərinin forumları keçirildi. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Ulu Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoymuşdur. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edildi. Ulu öndər Azərbaycan gəncliyinə hələ sovet dövründə də diqqət yetirmiş və onların təhsilinə xüsusi diqqət ayırmışdır.

Bu gün dövlət gənclər siyasəti ölkə başçısı Cənab İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə gənclərin dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi, onların potensialından düzgün istifadə məqsədilə davamlı olaraq tədbirlər keçirilir. Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar.

Gəncliyə göstərilən dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Bu sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bugünkü gənclik mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclərdir. Hər bir gənc ölkə qarşısında qoyulan məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib". Cənab Prezident İlham Əliyev tərəfindən uğurla aparılan gənclər siyasətinin nəticəsidir ki, gənclər mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclərdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Masallıda “O, Heydər Əliyevdir!” mövzusunda tədbir keçirilib



Mayın 4-də Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının, Masallı Regional Mədəniyyət İdarəsi və Masallı Dövlət Regional Kolleci ərazi partiya təşkilatlarının birgə dəstəyi ilə Nizami Gəncəvi adına Mədəniyyət Mərkəzində ”Heydər Əliyev ili” çərçivəsində ”O, Heydər Əliyevdir ! ” mövzusunda tədbir keçirilib.Yeni Azərbaycan Partiyası fəallarının, kollecin müəllim və tələbə kollektivinin iştirak etdiyi tədbirdə əvvəlcə ümummilli lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.Tədbiri giriş sözü ilə açan YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev Ümummilli Liderin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən danışaraq, dünya liderlərinin dahi şəxsiyyət haqqında dedikləri sözlərdən sitatlar səsləndirib. Qeyd olunub ki, öz tarixinin qızıl əsrini keçmişdə axtarmağa adət etmiş bir çox xalqlardan fərqli olaraq, Azərbaycanın həqiqi intibahının müasirləri olduğumuz dövrə təsadüf etdiyi ictimai düşüncənin birmənalı qəbul etdiyi həqiqətlərdəndir. Azərbaycan Respublikası adını daşıyan müstəqil dövlətin yaranmasından tutmuş, onun indiki heyrətamiz inkişaf dinamikasına qədər özündə milli dirçəlişi əks etdirən unikal tarixi sosial-iqtisadi və milli-mənəvi hadisələr məhz yaşadığımız zamanda cərəyan etməkdədir. Heç şübhəsiz, bütün bunların üzərinə vurulmuş müasirlik möhürü Heydər Əliyevin adı və titanik fəaliyyəti ilə bilavasitə əlaqədardır.

Sonra Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov çıxış edərək Heydər Əliyev və müstəqil Azərbaycanın mədəniyyət siyasətindən söhbət açıb. Natiq qeyd edib ki, deyilənlərə yekun vuraraq, belə bir faktı təsdiq etmək olar ki, Azərbaycanın Heydər Əlirza oğlu Əliyev tərəfindən əsası qoyulmuş müasir mədəniyyət siyasətinin və idarəçiliyin aparıcı istiqamətləri keçmişi, milli mədəni sərvətləri qoruyub saxlamaq, indinin müsbət nailiyyətlərini dəstəkləmək və inkişaf etdirməkdir. Cəmiyyətin ardıcıl surətdə demokratikləşməsi, ölkənin dünya birliyinə inteqrasiyası, mədəniyyətin bəşər inkişafının ayrılmaz faktoru kimi dərk olunması və qəbul edilməsinin getdikcə güclənməsi bu sahədə nikbin proqnozlar üçün əsas verir. Beləliklə, müstəqil Azərbaycanın mədəniyyət siyasətinin banisi olan Heydər Əliyevin bu sahədəki böyük nailiyyətləri ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilərək daha da yüksək zirvələrə doğru ucalır.Tədbirdə YAP Masallı rayon təşkilatı tərəfindən ümummilli lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Masallı Regional Mədəniyyət İdarəsinin məsləhətçisi Miriş Hüsyenov və baş mühasib Mirələm İbrahimov ”Fəxri Fərman”la təltif edilib.Yekunda Masallı Xalq Teatrı aktyorlarının və Masallı Dövlət Regional Kollecinin tələbələrinin ifasında Ulu Öndərə həsr olunmuş ”Möhtəşəm Qala” kompozisiyası nümayiş olunub.

***Rəfiqə***




Hər kəs gözəl geyinmək, yaxşı yemək, içmək, gəzmək və ya istirahət etmək istəyir. Amma bəzən gözəl görünən, yaxşı seyr edilənlər əksər hallarda üstü bəzək, altı təzək olur. Bir də görürsən ki, ilk baxışdan səndə xoş ovqat, gözəl hiss yaradan əşya və ya mənzərə, əslində, heç də ümidlərini doğrultmadığını göstərir. Amma baxırsan ki, kimsə sosial şəbəkələrdə sənə xoş olmayan, zövqünə uyğun gəlməyən məsələdən bəh-bəhli status paylaşır. Elə şeylər guppuldadıb, elə cızmaqaraya yol verir ki, adam oxuyanda ”cuşa” gəlir. Şeir yazanlar da olur. Ümumiyyətlə, son vaxtlar şeir yazanların sayı çoxalıb. Bir növ şeir yazmaq dəb halını alıb. İlk baxışdan elə görünür ki, sanki şeir yazanlar bir-birilərinin bəhsinə yazırlar. Bir də görürsən ki, sosial şəbəkələrdə hansısa bir istifadəçi saz və ya tar havası üzərində şeir guppuldadır. Şeirin nə mənası var, nə qafiyəsi var, ümumiyyətlə, bilmək olmur nədir. Cəsarət edib, irad bildirsən, səni bir qəpiklik edər. Söyüşlə, təhqirlə, ayaqdan başa qədər səni bəzəyər. Ona görə də, susmağa, dinməməyə üstünlük verirsən. Düşünürsən ki, cəhənnəmə, mənə nə. Başqaları da deyir və yazır ki, mənə nə. Beləcə bayağı, mənasız, zövqsüz şeirlər dövriyyəyə buraxılır. Bu məqamda böyük şairimiz Mikayıl Müşfiqin dediyi misralar yadıma düşdü:

Şairəm söyləyir, yerindən duran,
Adamın üzündə həya gərəkdir!

Şeirlərini kitab şəklində çap edib, təqdimatını keçirənlər də rast gəlmişəm. Həmin kitablardan mənə də göndəriblər. Nə edə bilərəm ki, susmuşam. Açığı -əla, möhtəşəm yazmısan - dediyim də olub. Nə edə bilərəm ki, mənə nə... Hətta eşitmişəm ki, bəzi şeir yazan həvəskarlar bərkgedən müğənnilərlə əlaqəyə girib, onlara şeirlərini mahnı kimi səsləndirmələrini xahiş edirlər. Sonra da televiziyaya, mətbuata çıxıb deyirlər ki, filan müğənini popular edən onun şeirlərinin əzəməti olub. Yəni sponsoru filanı arxa cərgəyə tolazlayıblar. O gün bir video qarşıma çıxdı, bir şeir əhli eşşəkdən yazır, eşşəyi o ki var tərifləyir. Düzdür, tərifə layiq olanı tərifləyərlər, ancaq eşşəyini açıq şəkildə tərifləyib, mazatını göylərə qaldırmaq nəyə lazımdır? O zaman anladım ki, bu kimdirsə, məqsədi müğənnilərin diqqətini şeirə cəlbetmədir. Niyə də olmasın ki, Elza Seyidcahan qoyundan, keçidən, toyuqdan mahnı bəstələyib, özü də oxuyursa, niyədə ki, eşşəkdən bəhs edən mahnını oxumasınlar. Nəzrədə almaq lazımdır ki, heyvanat aləmində ən gözəl göz eşşəkdədir. Ancaq kiməsə ”eşşək gözlüm” desən, əminliklə demək olar ki, o sözü deyən az vaxt sonra polisdə zərərçəkən qismində tanınacaq. Eləcə də, şou-biznes aləminin bərkgedən mütrifləri kimi tanınan Rəqsanə, Aygün, Xatirə, Röya ”Ay mənim eşşək gözlü yarım” deyə zəngulə vursalar, yüz faiz sizləri əmin edirəm ki, bu mütriflər həmin dəqiqə sponsorsuz qalacaqlar, xarici avtomobildən, bərli-bəzəkli villalardan məhrum olunacaqlar. Ona görə də bu biçarələr, hər kəs kimi saxtakarlıq edərək, içib hovuza girəndə, ”Maral, maral, maral” oxuyub, aradabir ”Ay mənim ceyran gözlüm” deyirlər.Bu mütriflər yalnız klip çəkdirəndə, eşşəkdən istifadə edirlər.

Yəqin ki, müğənni Brilyant Dadaşovanın eşşəklə bulaqdan su gətirməsi səhnəsini əks etdirən klipinə baxanlar olub. Bu barədə dərinə getməyəcəm, ayıbdı. Lakin onu qısaca deyə bilərəm ki, cəmiyyət arsında eşşək o qədər də hörmət - izzət sahibi deyil. O gün rayonların birinə getmişdim, bir kənd sakini ilə söhbət əsnasında, dedi ki, iki eşşəyi vardı, onu da dəyər-dəyməzə satıb. Maraqlandım, cavabı məni çox təəccübləndirdi: iki eşşək 20 manat. ABŞ-da, xüsusilə də Vaşinqitonda, Kaliforniyada eşşəyi olan amerikanlı mədəni sinyor, ləyaqətli mister hesab olunur. Hətta eşşəyin amekanlar üçün xətri o qədər əzizdir ki, onu Demokralar Partiyasının simvolu olaraq qəbul ediblər. Prezident seçkilərində zirək demokratlar özlərinə ”fil” simvolunu seçən respublikaçıları eşşəkləri vasitəsi ilə gözdən salmağa, sıradan çıxartmağa çalışırlar. Əksər hallarda da uğur qazanırlar.ABŞ-ın siyasi ensiklopediyasında əks olunan yazılı məlumata görə, demokratların eşşəyə olan sevgilərinin tarixi 1828-ci il prezident seçkilərindən qoyulub. Müharibə qəhrəmanı kimi özünə ad çıxarmış prezidentliyə namizəd Andreş Jackson respublikaçılar tərəfindən populizmdə ittiham edilərək, ”jackass”, yəni eşşək adlandırılmışdır. O zamandan demokratların adları üstlərindədir: ”Filan eşşək demokrat”, ”bəsmənkəs eşşək demokrat”. Bir sözlə, məsləhətim ondan ibarətdir ki, eşşəyi olan şəxs malını 20 manata deyil, birini 20 min ABŞ dollarına sata bilər. Məndən demək, məsləhət verməkdir, mal isə sizindir, neçəyə satmaq və ya eşşək haqqında şeirlər yazıb, müğənnilərin mahnı olaraq səsləndirməsi bazarlığına getmək isə sizin öz işinizdir, mənə nə.

***İ.ƏLİYEV***



# Arıqlamağın ən uyğun yolu

**MƏTANƏT**

***Müasir dövrümün dəbindən biri də arıq olmaqdır. Ötən illərdə niyə bu kimin üçünsə dərd idi? Əsla. Camaat əlinə düşəni yeyirdi, ta fikirləşmirdi ki, birdən kilo alaram, ya almaram. Kök kök idi, arıq da arıq. Ən əsası isə o idi ki, nə arıqlığı, nə də köklüyü özü üçün dərd edən yox idi.***

Elə ki, müasirləşdik, Avropaya inteqrasiya etdik, Avropadan dərhal götürdüklərimizdən və tərzini çıxardıqlarımızdan biri də arıqlamaq, formada qalmaq oldu. Hə, bax, problem elə bu vaxt başladı. Xüsusilə qadınlar böyük bir çətinliklə üz-üzə qaldılar. Yeyəsən necə yeyəsən, yeməyəsən, necə yeməyəsən. Elə bil ki, qadınların acığına dövr də dəyişdi. Su da içdilərsə, kilo almağa başladılar.

Çəkisi artıq insanlara isə artıq cəmiyyətdə qəribə baxışlar formalaşmağa başladı. Bu səbəbdən də qadınlar necə olursa-olsun, kilo verməyə, formaya düşməyə çalışdılar. Bunun üçün də müxtəlif yollar axtarmağa başladılar.

Məsələn, əksər qadınlar Ramazanda orucu məhz arıqlamaq üçün tutmağa başladılar. Bu oruc da belə oldu ki, səhərdən axşama ac qaldılar, axşamsa elə yeyib-içdilər ki, heç bir faydası olmadı. Əksinə, Ramazanın sonunda baxdılar ki, əvvəlkindən də kilolu olublar. Belə olanda yenə yeni yollar axtarmağa başladılar. Necə etməli ki, bu kilolardan xilas olmalı...

Hə, bu arada artıq qadınların istəkləri məlum olduğu üçün arıqlama preparatları da ölkəyə gətirildi, məhsulları da. Qadınlar həmin preparatlardan, çaylardan istifadə etməyə başladılar. Nəticəsi isə bu oldu ki, onlar arasında onlarla qadın həmin preparat və çaylardan istifadə etdikləri üçün ölümcül vəziyyətə düşdülər. Belə olanda isə onlardan da imtinaya başladılar.

Arıqlamağın yolunu plates, fitnesdə görənlər bu kimi zalların sayını artırmağa başladılar və sosial şəbəkələr başladılar arıqlamağın bu yolunun reklamını aparmağa. Qadınlar da üz tutdular plates və fitnes zallarına. Bu dəfə nə baş verdi? Elə ağrılarla, yanmalarla qarşılaşdılar ki, elə birinci gedişlə də bu arıqlama metodundan vaz keçdilər.

Yaranmış şəraitdən yararlanan bəzi adamlar isə nə etdilər? Adlarını dietoloq qoyub başladılar sosial şəbəkələrdə arıqlama reseptləri satmağa. İnsafən onlar arasında həqiqi dietoloqlar da var. Lakin belə dietoloqların kölgəsinə sığınanlar da təəssüf ki, az deyil. Beləliklə də yaxşı və pis dietoloqlardan alınan reseptlər bəzi qadınların istədikləri kiloya enmələri, bəzi qadınların isə elə olduğu kiloda qalması ilə nəticələndi.

Uzun sözün qısası, hazırda da qadınlar arıqlamaq üçün hansı üsulun daha səmərəli olmasını gündəlik olaraq axtarmaqdadırlar. Yəni onlar elə bir üsul seçmək istəyirlər ki, həm yesinlər, həm də arıqlasınlar. Gözəl-gözəl şirniyyatlardan dadmamış olmasınlar, idmanla məşğul olub özlərinə əziyyət verməsinlər, mənşəyi bilinməyən preparatlardan, məhsullardan istifadə edib həyatlarını itirməsinlər.

Bəli, bütün bunların xaricində yeni bir yol, yeni bir üsul nə ola bilər ki, qadınları müəyyən kiloda saxlaya. Onlar gözəl, cazibədar görünələr? Bu, nə ola bilər? Əslində bizə çox yaxın, lakin ağlımıza gətirmədiyimiz bir üsul var ki, hər bir qadın üçün çox əlçatandır ki... Bu, Tiktok-dur.

Maraqlıdır, deyilmi? Hələ onlarla sual da doğura bilər ki, Tiktok hara, arıqlamaq hara? Lakin böyük əminliklə deyirəm ki, arıqlamağın ən yaxşı üsulu gündə ən az 5-10 dəqiqə Tiktok sosial şəbəkəsində ”gəzməkdir”. Bu an insanın əti o dərəcədə tökülür ki, arıqlamamaq mümkün deyil. Belə isə, sizə uğurlar arzulayıram, əziz qadınlar. Bir bunu da təcrübədən keçirin. Düşünürəm ki, peşman olmazsınız...



# Fitnes zalı necə seçilməlidir?

***Sağlam və uzun ömür arzulayanların, ideal çəkiyə çatmaq istəyənlərin qazanacağı əsas həyat vərdişi nizamlı idmandır. Lakin idmanla məşğul olmaq üçün xüsusən də şəhərdə təbii mühit tapmaq çətindir. Bu baxımdan idman zallarına inanılmaz tələbat var. Artıq demək olar ki, hər küncdə kiçik və böyük idman zalı var. Bəs, bu idman zalları arasında necə seçim etməliyik və hansı idman zalına üzv olacağımızı necə müəyyənləşdirməliyik?***



SİA mövzu ilə bağlı araşdırma aparıb.

## İdman zalı evinizə və ya iş yerinizə yaxın olmalıdır

Xüsusən buna öyrəşməyən insanlar üçün mütəmadi olaraq idmanla məşğul olmaq və hər gün idman zalına getmək ilk vaxtlar çox çətin, hətta işgəncə kimi gələ bilər. Bunu nəzərə alaraq, işinizə və ya evinizə yaxın olan idman zalı seçməlisiniz.

## İdman zalının qiymətinin büdcənizə uyğun olması vacibdir

İdman zallarının təxminən 60-70%-i fiziki təchizat baxımından bir-birinə yaxındır. Bu səbəbdən idman zalına sırf daha yüksək səviyyəli bir küçədə olduğuna, dəbli adı olduğuna və ya heç vaxt istifadə etməyəcəyiniz bir neçə gözəl trenajora sahib olduğuna görə 2-3 dəfə çox pul xərcləməyin. Unutmayın ki, çox imkanlı deyilsinizsə, büdcənizi aşan idman zalında uzun müddət qalma ehtimalınız da azdır.

## Normal insanların üz tutduğu zalları seçin

Mütəmadi olaraq gedəcəyiniz və hər gün 1-1,5 saat vaxt



sərf edəcəyiniz idman zalında necə insanların olması vacibdir. İdman xüsusilə motivasiyalı və həvəslə etməli olduğunuz bir fəaliyyət olduğundan profilinizə yaxın insanlarla eyni mühitdə olmağa diqqət edin.

## İdman zalı sizə əlavə imkanlar təklif etməlidir

İdman zalı yalnız bir neçə idman avadanlığı olan qapalı məkan demək deyil. Sizi idmana həvəsləndirəcək və enerjinizi artıracaq əlavə imkanlara nəzər salın. Məsələn, idmanla bağlı təlimat, psixoloji məsləhət, qidalanma məsləhəti, masaj, sauna xidmətləri də olsa yaxşı olar.

## İdman zalının iş saatlarına diqqət yetirin

Gərgin iş rejiminizdə bəzən gec saatlarına qədər işləyirik. Bəzən isə bayram günlərində idmanla məşğul olmaq istəyə bilərsiniz. Bu baxımdan idman zalının hər gün açıq olması və işdən sonra bir az dincələ biləcəyiniz saatlarda açıq olması vacibdir. Onsuz da həftədə ən az 6 saat işləyirsiniz, bu yorğunluğu aradan qaldırmaq üçün vaxt ayırmaq və getdiyiniz salonun bağlı olduğunu görmək motivasiyanızı azalda bilər.

## Zal sizə xüsusi məşq imkanları və təlimatlar təklif etməlidir

İdmanla necə düzgün və effektiv məşğul olmağı bilirsinizsə, yəqin ki, artıq öz məşq proqramınızı hazırlayırsınız. Ancaq idmana yeni başlamışsınızsa və idman zalı seçməyə çalışırsınızsa, o zaman idman zalında məşqçilərin və idman



akademiklərinin profili böyük əhəmiyyət kəsb edir. İdmana olan marağınızı, motivasiyanızı və potensialınızı tam qiymətləndirə bilməniz üçün mütləq məsləhətçiyə ehtiyacınız olacaq.

İdman zalı üçün qeydiyyatdan keçməzdən əvvəl, məşqçilərlə görüşün və sizə rəhbərlik edəcək şəxsə tələblərinizi açıq şəkildə bildirin. Bütün bunlar üçün təcrübəli məşqçilər və məsləhətçilər olan idman zalları seçin.

Əgər çox gənc yaşlarından idmanla məşğul olan bir insan deyilsinizsə və sadəcə idmanla tanış olacaqsınızsa, idman sizin üçün xoş bir fəaliyyət olmaya bilər. Bu baxımdan idman zalının qrup fəaliyyətləri ilə yanaşı, fərdi məşq proqramlarını da əhatə etməsi vacibdir.

## İdman zalı əyləncəli fəaliyyətlər və



## imkanlar təklif etməlidir

İdman salonlarında idmanı sizin üçün daha zövqlü edəcək əlavə imkanlar olmalıdır. Bu baxımdan istifadə etdiyiniz alətlər rəqəmsal ekrana sahib olsa, musiqi dinləyərək və sevdiyiniz seriallara baxaraq idman edirsinizsə, daha çox motivasiya olacaqsınız. İdmanı əyləncəli etmək lazımdır.

## Gigiyena vacibdir

Müxtəlif insanlar idman zalı və içəridəki avadanlıqlardan



istifadə edirlər. Bu baxımdan avadanlıqları, döşəməni, qapını, pəncərəni və doğrudan da bütün idman zalını mütəmadi çox vacibdir.

ARAŞDIRMA

*Ardı Səh. 12*

# Fitnes zalı necə seçilməlidir?

Əvvəli Səh.11

## Havalandırma sisteminə və kondisionerə diqqət yetirin

Yaxşı havalandırma sistemi, bir çox insanın böyük səy göstərdiyi və eyni zamanda çox tərlədiyi idman zallarında sağlam mühit üçün əsas şərtlərdən biridir. Əks halda xəstəliklər qaçılmaz olacaq. Ancaq bu havalandırma sistemi salonda tərləyən idmançıları soyuq və xəstə etməyəcək bir profildə hazırlanmalıdır. İdman zalının kondisioneri yüksək sürətlə işləməməli, idman birbaşa kondisionerin qarşısında edilməməli, kondisionerin filtri mütəmadi olaraq təmizlənməlidir. Bu, idman edərkən bədəni gücləndirmək və xəstəliyə səbəb olan zərərli birləşmələri çıxarmaq yoludur.

## İdman avadanlıqlarının keyfiyyəti və çeşidi çox vacibdir

İdman zalına üzv olmamışdan əvvəl sizə internetdən və ya bu barədə məlumatlı olan dostunuzdan məlumat almanızı məsləhət görülür.Çünki zaldakı avadanlıqların keyfiyyəti və ehtiyaclarınızı ödəyə biləcək müxtəliflik önəmlidir. Məsələn, hər növ çəki avadanlıqları, gəzinti və qaçış yollarının iş qabiliyyəti, bədənin bütün əzələlərini məşq etməyə uyğun avadanlıqlar həmin idman zalını seçmək üçün fərqləndirici səbəblərdir.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, Hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə:** "Bir neçə gün bundan öncə 2016-cı il təvəllüdlü Fərid Bakarovun sambo idman növü üzrə keçirilən məşq zamanı ölümü bütün Azərbaycan cəmiyyətini həm kədərləndirib, həm də hiddətləndirib. Müxtəlif sahələrdə nəzarət zəif olduqda, boşluqlar olduqda bu cür acı hadisələrin yaşanması da təbiidir. Çox təəssüf edirəm.



İlk öncə, məndə olan məlumata görə, bu cür məşqçilərin məşqçilik fəaliyyəti ilə məşğul olması üçün sertifikatı olmalıdır. Onlara zalları verən müəssisələrin rəhbərləri bu sertifikatlara uyğun addım atmalıdırlar. Eyni zamanda, həmin idman zallarında qanuna zidd hərəkətlərin olub-olmamasını bilmək üçün videokameralar quraşdırılmalıdır. Mən demirəm ki, kimsə oturub bütün günü kameraların arxasında zalı izləsin. Amma bütün hallarda kameraların olması vacibdir ki, hadisənin necə baş verdiyini biləк.

Çox şübhəsiz ki, hadisəni törədən şəxs layiqli cəzasını alacaq. İnsanlığa sığmayan hərəkətlər olunub. Bu adamın psixi yaxud da digər problemlərinin olması müşahidə olunur. O hərəkətləri ilə vəhşi obrazı yaradan məşqçiyə oxşuyur.

Hesab edirəm ki, qanunlarda müəyyən boşluqlar varsa, bu mütləq tənzimlənməlidir. Bu cür şəxslərə hansı hallarda lisenziya verilməsi, onlara sağlamlıq durumları ilə bağlı arayışlar neçə aydan bir verilməlidir kimi məsələlər tənzimlənməlidir. Çünki bir tibbi arayış alıb 10 il onunla fəaliyyət göstərmək mümkün deyil.

İndi hər küncdə bir idman zalı açılır. Bu məsələlər ciddi nəzarətə götürülməlidir.

Mən öldürülən günahsız körpənin valideynlərinə başsağlığı verirəm. Onun yeri cənnətdir. Həssas insanlar bu görüntülərə baxıb çox üzülürlər".

**MMA məşqçisi, "TT Fight" döyüş klubunun baş məşqçisi Şəhriyar Abbasov:** "Ümumiyyətlə, fitnes və idman zalları iki hissəyə bölünür. Biri var ki, trenajorlu fitnes zalları, biri də var olimpik və qeyri-olimpiya idman növlərinin zalları.



Olimpiya idman növlərinin və qeyri-olimpiya idman növlərinin hamısı Gənclər və İdman Nazirliyinin tabeliyindədir. Hesabatı da ora verirlər.

Fitnes zalları isə fərdi insanların tabeliyindədir. Onların işlədilmə qaydası tamamilə fərqlidir. Mənim bildiyim qədərilə respublikada bütün fitnes zallarında kamera sistemi var. Şəhərdə bizə aid dörd zal var ki, onlar fəaliyyətə başlayan gündən bəri kamera sistemi ilə təmin olunub.

Gənclər və İdman Nazirliyi federasiyalara nəzarət edə bilər. Onların psixoloji durumları haqqında da Gənclər və İdman Nazirliyi rəy verir.

Fitnes isə özəl sahədir. Burada problemlər də başqadır. Çünki fitnes zalları çalışır ki, müştərilər üçün yaxşı münasibət və qaşılanma təşkil olunsun. Bu da zalların özəl olmasından irəli gələn məsələdir. Bu zallarda müəyyən preparatlar verilir ki, bu idmançılar üçün ziyanlıdır və kim necə gəldi istifadə edir. Bu məsələnin qarşısı alınmalıdır.

Bir neçə gün bundan öncə 2016-cı il təvəllüdlü Fərid Bakarovun sambo idman növü üzrə keçirilən məşq zamanı ölümü çox üzücü bir hadisədir. Duyğuları olan hər bir insan buna üzülər. Mənim də övladım var və cüdo ilə məşğul olur. Bir anlıq gözümün önünə öz övladım gəldi. Cüdo olimpiya idman növləri içərisində hətta deyərdim ki, ən yaxşısıdır. Çünki burada təlim-tərbiyə çox yüksək səviyyədədir. Burada nəzarət çox vacibdir".

**"Blissland İdol GYM" zalının məşqçisi Simran Rəhmanov:** "İlk öncə qeyd edim ki, fitnes fəaliyyəti hər kəsə önək olmaqla sağlam qidalanmaq, zərərli vərdişlərdən əl çəkmək, steroidlərdən uzaq olmaq və sağlam düşüncə yaratmaqla olmalıdır.



Məşqçinin sağlamlığı və psixoloji durumu haqqında idman federasiyası rəy verməli və mütəmadi olaraq həmin idman müəllimi həkim nəzarəti altında yoxlanılmalıdır.

Zallarda videokameraların olması isə daha məqsədəuyğundur. Çünki bura insanların sıx olduğu yerdir və kamera da təhlükəsizlik üçün çox önəmlidir.

2016-cı il təvəllüdlü Fərid Bakarovun sambo idman növü üzrə keçirilən məşq zamanı ölümü ilə bağlı onu deyə bilərəm ki, idman müəlliminin psixoloji duurmunun yerində olmadığı aydın məsələdir. Çünki bir idman müəlliminin azyaşlı uşağa qarşı belə amansız davranması ağlasığan deyil. Son olaraq qeyd edim ki, bütün müəllimlər kimi idman müəllimi də gənclərə örnək olmalıdır".

***Ayşən Vəli***



## "Millətin atası" kitabının təqdimatı olub

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) "Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, hüquq elmləri doktoru, professor Arif Quliyevin "Millətin atası" (Oteü naüii) kitabının təqdimatı baş tutub. Təqdimatda elm xadimləri, millət vəkilləri, media nümayəndələri iştirak ediblər.

Tədbiri giriş nitqi ilə MEK-in baş direktoru, professor Məmməd Əliyev açaraq qeyd edib ki, bütün mənalı ömrünü xalqına həsr etmiş, siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti ilə Azərbaycan xalqının tarixində dərin izlər buraxaraq əsl dövlət idarəçilik məktəbinə çevrilən Ulu Öndərin irsinə həsr olunmuş yeni əsərlər, kitablar və monoqrafiyalar nəşr olunur. Diqqətə çatdırıb ki, təqdimatı keçirilən "Millətin atası" (Oteü naüii) kitabı da məhz müasir Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin fəaliyyətini əks etdirir.

AMEA-nın birinci vitse-prezidenti akademik Arif Həşimov çıxış edərək təqdimatı keçirilən kitabı müəllifin uzun illər zəhmətinin bəhrəsi olduğunu vurğulayıb. Akademik Arif Həşimov bildirib ki, Ulu Öndər haqqında çoxsaylı dəyərli nəşrlər yazılıb və yazılmaqda davam edəcək, Ümummilli Lider Heydər Əliyevin irsi daim öyrəniləcək və gələcək nəsillərə ötürüləcək. Ukraynada gedən siyasi proseslər zamanında belə bir kitab yazmağın heç də asan olmadığı vurğulayan akademik Arif Həşimov bu baxımdan da müəllifin zəhmətini yüksək qiymətləndirib.

Daha sonra nəşrin müəllifi professor Arif Quliyev çıxış edərək kitabın ərsəyə gəlməsi istiqamətində gərgin zəhmətindən danışıb. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyev müasir Azərbaycanın memarıdır. Bildirilib ki, Heydər Əliyev Ukrayna və Azərbaycan arasında strateji partnyorluğun inkişafına böyük diqqət yetirərək həmişə Ukraynanın sabit dostu olmuşdur. Müəllif Heydər Əliyevlə şəxsən bir neçə dəfə görüşməsi barədə xatirələrini bölüşüb və monoqrafiyada xüsusi yer ayırdığını diqqətə çatdırıb. Bildirilib ki, Ulu Öndəri "Hakimiyyət ustası", "Böyük vətəndaş", "Əsrin adamı" adlandıraraq bu məsələlərə ayrı-ayrı fəsillər həsr edib. Müəllif, həmçinin kitabın təqdimatında göstərdiyi dəstəyə görə MEK-in rəhbərliyinə təşəkkürünü bildirib.

AMEA-nın müxbir üzvü, Qafqazşünaslıq İnstitutunun direktoru, millət vəkili, professor Musa Qasımlı, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun icraçı direktoru, tarix elmləri doktoru Eynulla Mədətli, millət vəkili Fatma Yıldırım, millət vəkili Vüqar İskəndərov, YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev çıxışlarında qeyd ediblər ki, Heydər Əliyev böyüklüyü və ucalığı tam dəqiqliklə araşdırılmalı, dərindən öyrənilməlidir. Azərbaycan Dillər Universitetinin elmi işlər üzrə prorektoru, professor Novruz Məmmədov çıxışında professor Arif Quliyevin diplomatiyaya, beynəlxalq münasibətlərə dair əhəmiyyətli yazılarının, monoqrafiyalarının müəllifi olduğunu bildirib.

## "Nar" "Baku Open 2023" Şahmat turnirinin rəsmi tərəfdaşıdır




"Nar" ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə təşkil olunan "Baku Open 2023"beynəlxalq şahmat turnirinin rəsmikommunikasiyatərəfdaşıdır.Gənclər və İdman Nazirliyi və Azərbaycan Şahmat Federasiyasının birgə təşkil etdiyi və 600-dən çox şahmatçının iştirak etdiyi turnir 3-12 may tarixlərində Bakı Kristal zalında baş tutacaq. Ümumi mükafat fondu 55 min ABŞ dolları olan turnir 3 kateqoriyadanibarət olan 9 tur üzrə isveçrə sistemi ilə oynanılacaq. Oyunları izləmək istəyən şahmat həvəskarları üçün giriş sərbəstdir.

"Baku Open 2023" Şahmat turnirinə dəstək "Nar"ın Korporativ Sosial Məsuliyyət (KSM) strategiyasının təhsil istiqaməti çərçivəsində həyata keçirilir. Mobil operator KSM strategiyası çərçivəsində bir sıra davamlı layihələr gerçəkləşdirir. "Nar"ın sosial layihələri haqqında ətraflı məlumatı buradan əldə edə bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Xalçaçılıq sənətinin beşiyi



Xalqın milli mədəniyyəti tarixində müstəsna yer qazanan xalçaçılıq sənəti dünyanın bir sıra ölkələrində yayılmış olsa da, qətiyyətlə deyə bilərik ki, bu sənət növünün beşiyi Azərbaycandır. Burada toxunan və istehsal edilən xalçalar dünyada müqayisə edilməyən nümunə kimi qəbul olunur. Bu gün paytaxtımızda fəaliyyət göstərən orijinal üslubda inşa olunan bükülmüş xalçanı xatırladan Xalça Muzeyinin sərgi və fondlarında 13 min 300-dən artıq eksponat və əşya saxlanılır ki, bu da bu sənət növünün müxtəlif dövrlərdəki inkişafını əks etdirir. Muzeydə xalça və xalça məmulatları, metal məmulatlar, parça, geyim və tikmə, keramika, şüşə, ağac, kağız, zərgərlik əşyaları, kitablar, fotoşəkillərdən ibarət nadir kolleksiya mühafizə olunur.

Azərbaycan Prezidenti Cənab İlham Əliyev Azərbaycan xalçasını dünyada xalçaçılıq sənətinin etalonu kimi dəyərləndirir: "Mən çoxsaylı xarici səfərlərim zamanı müxtəlif yerlərdə, müxtəlif ölkələrdə prezident saraylarında Azərbaycan xalçasını görmüşəm. Qeyd etmişəm, öz həmkarlarıma bildirmişəm ki, bax bu xalça Azərbaycan xalçasıdır və onlar bunu bilirlər. Yəni, bu gün Azərbaycan xalçası dünyada məhz Azərbaycan xalçası kimi tanınır". Bu gün Azərbaycan qadın ustalarının əlləri ilə yaradılan gözəl xalçalar və xalça məmulatları Sankt-Peterburqda Ermitaj, Londonda Viktoriya və Albert, Vaşinqtonda Tekstil, Parisdə Luvr, İstanbulda Topqapı kimi dünyanın böyük muzeylərini, habelə, Bakıda Azərbaycan xalçaları muzeyini və Azərbaycan tarixi muzeylərini bəzəyir. Xalça Azərbaycanın çox fərqli milli sərvətidir.

Azərbaycana qonaq gələn şəxsə təqdim olunan gözəl əşya xalçadır. Azərbaycandan qonaq gedərkən xarici dövlətlərə aparılıb ən dəyərli hədiyyə olaraq təqdim olunan da yenə də xalçadır. Bu cür istehsalımız olan və bütövlükdə dünyamızı özündə əks etdirən xalçamız Azərbaycanın məxsusi dəyərlərini, tarixini özündə cəmləşdirir.

Xalçaçılıq sənəti xalqın milli mədəniyyəti tarixində müstəsna olaraq yer qazanmışdır. Tarixi qədim bir dövrü əhatə edən xalçaçılıq sənəti müxtəlif naxış elementləri və təsvirlərlə bəzədilən xovlu və xovsuz xalçalar çadırların, alaçıqların, habelə yaşayış evlərinin və digər binaların divar bəzəklərində, döşənməsində istifadə edilir, eyni zamanda yüksək estetik əhəmiyyət kəsb edir. Xalçaçılığın istehsalı, tərtibi zahirən bir qədər asan görünsə də, onu yaradanların gərgin əməyinin çətinliyi dərk olunmalıdır.

1949-cu ildə aparılan arxeoloji axtarışlar zamanı xalçanın yaşının 2500 il tarixi olduğu qeyd olunur. Məlumdur ki, Azərbaycan xalçaçılıq sənəti qrup və tiplərə bölünür: Təbriz, Qazax, Gəncə və s. Hər bir ərazinin öz milli xüsusiyyətləri əsasında xalça üzərində ornamentlər gözəl bir təsvir yaradır. Azərbaycan xalçaları sənət sahəsi kimi həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə şərti olaraq xalçaçılıq məktəbinə bölünür. Burada hər bir ərazinin təbiətinə uyğun olaraq rənglərdən istifadə olunur. Azərbaycanın şimal-şərqində yerləşən Quba xalça mərkəzi üç hissəyə-dağlıq, dağətəyi və ovalıq hissələrə bölünür. Quba xalçalarının bəzəyini həndəsi naxışlardan ibarət ornamentlərin stilizə edilmiş nəbati, bəzən isə heyvan motivləri təşkil edir. Bu məktəbin xalçalarında medalyonlu çeşni üslubu da geniş yayılmışdır. Bakı məktəbi, Abşeronun kəndlərinin xalçalarına gəlincə isə, burada hazırlanan xalçalar daha yumşaqlığı, rənglərinin intensivliyi, bədii elementlərinin orijinallığı və naxışlarının incəliyi ilə seçilir. Xalçaların bəzəklərində həndəsi formalı göllər, əyri xətli nəbati elementlər üstünlük təşkil edir. Bakı qrupuna aid xalçaların rəng koloritində əsasən tünd göy, nadir hallarda isə qırmızı və sarı rənglərdən istifadə edilir. Bu xalçaların əksəriyyəti toxunduğu kəndin adını daşıyır. Şirvan xalçalarının zəngin və mürəkkəb naxışlı kompozisiyaları orta əsrlərdən məşhurdur.

## HƏYAT EŞQİ VƏ PARLAQ KOLORİTİ İLƏ SEÇİLƏN QARABAĞ XALÇALARI

Azərbaycan xalçaçılıq məktəblərindən söz açarkən Qarabağ xalçaçılıq məktəbini də xüsusi olaraq qeyd etməliyik. Qarabağ xalçalarının 33 kompozisiyası mövcuddur. Yerli qoyun növlərinin yununun xüsusiyyətlərinə görə Qarabağ xalçaları sıx hündür və yumşaq xova malikdir. Qarabağ xalçaları həyat eşqi və parlaq koloriti ilə seçilir. Onlar dörd qrupa bölünürlər: medalyonsuz, medalyonlu, namazlıqlar və süjetli. Bu xalçalar Qarabağın dağlıq hissəsində Malıbəyli, Muradxanlı, Daşbulaq, Cəbrayıl, Horadiz və bir çox başqa qəsəbələrində istehsal olunub. Yazılı mənbələrdə ərəb tarixçiləri Əl-Müqəddəsi, Məsudi və b. tərəfindən göstərilir ki, X əsrdən başlayaraq yun və pambıq emalı ilə məşğul olan iri sənətkarlıq mərkəzi kimi adı çəkilən Qarabağın Dağlıq zonasında XIX əsrdə xalça istehsalında Şuşa şəhəri və Daşbulaq, Dovşanlı, Girov, Trniviz, Çanaxçı, Tuğ, Köhnə Tuğlar, Hadrut, Muradxanlı, Qasımuşağı, Qubadlı, Qozağ, Mirseyid, Bağırbəyli, Xanlıq, Dağ Tumas kəndləri əsas rol oynayırdılar. "Aran xalçası", "Bağçadagüllər xalçası", "Balıq xalçası", "Buynuz xalçası", "Bərdə xalçası", "Bəhmənli xalçası", "Qarabağ xalçası", "Qoca xalçası", "Qasımuşağı xalçası", "Ləmbəran xalçası", "Muğan xalçası", "Talış xalçası", "Lampa xalçası", "Malıbəyli xalçası", "Xanqərvənd xalçası", "Xanlıq xalçası", "Xantirmə xalçası", "Çələbi xalçası", "Şabalıdbuta xalçası", və s. çeşnili xalça kompozisiyaları Qarabağ xalçaçılıq məktəbinin klassik nümunələrindəndir.

XVIII əsrdə Qarabağ xalçaçılıq məktəbi Şuşada cəmlənmişdir. XVIII əsrdə Şuşada klassik çeşnili xalçalarla yanaşı, Rusiyadan, eləcə də Avropadan gətirilmiş məcməyi, ətirli sabun, çit və digər müxtəlif məişət əşyaları üzərindən götürülmüş naxışlardan yeni xalça kompozisiyaları - "Bağçadagüllər xalçası", "Saxsıdagüllər xalçası", "Bulud xalçası" və s. çeşnilər toxunurdu. Qarabağ xalçalarının rəng - boyaq palitrası olduqca zəngindir. Bu palitra Qarabağ təbiətinin bütün rənglərinin ən zərif çalarlarını özündə əks etdirir. Qədim dövrlərdən Azərbaycan xalçalarının ara sahə yerliyi ənənəvi olaraq qırmızı rəngdə işlənmişdir. Qarabağ xalçalarının motivləri öz bədii dəyərinə və təsvirinin orijinallığına görə bənzərsizdir.

Mənbələrdə göstərilir ki, xalq dastanının qəhrəmanı, Şərqin böyük şairi Firdovsinin "Şahnamə" poemasında baş qəhrəman Rüstəmə həsr edilmiş Qarabağ xalçaları xüsusilə diqqəti çəkəndir. Rüstəm və Söhrab xalçalar seriyası miniatür rəngkarlığı üçün ənənəvi kompozisiya prinsiplərinin xalq ruhunda təsviri ilə diqqətəlayiqdir. Bunlar öz ideya, bədii xüsusiyyətlərinə görə xalq xalçaçılıq sənətinin sözün əsl mənasında tayı-bərabəri olmayan inciləridir.

## ŞUŞA XALÇAÇILIQ SƏNƏTİ

Xalçaçılıq sənətindən söz açarkən Şuşa xalçaçılıq sənətini də xüsusi olaraq qeyd etməliyik. Şuşa xalçaları xovunun hündür olması, əlvan, şux koloritli, çox nazik, incə xüsusən də dəst xalı-gəbə kimi iri ölçülü xalçaların toxunması ilə seçilir. Şuşa xalçalarını səciyyələndirən cəhət təbii boyaq maddələrin xalçalara verdiyi parlaqlıq, şux rəng palitrasıdır. Azərbaycanda olan 1500 növ boyaq bitkisinin əksəriyyəti Qarabağda olmuş, burada toxunan xalçaların ipliklərinin boyanmasında onlardan istifadə olunmuşdur. Şuşada 35-dən artıq orijinal xalça çeşnilərindən istifadə olunmaqla xalçalar toxunmuşdur. Xanlara məxsus böyük sarayların və iri malikanələrin bəzədilməsi üçün böyük ölçülü xalılar toxunmuşdur. Şuşa həm də ipək xalçaları ilə şöhrət qazanmışdır. İpək xalçalar, əsasən, mötəbər şəxslər, zadəganlar üçün sifarişlə və ya ixrac məqsədilə toxunurdu. Mənbələrdə göstərilir ki, XVIII əsrin ikinci yarısından etibarən, Qarabağın xalça istehsalı əsasən Şuşa şəhərində mərkəzləşir. Toxuduğu xalça və palazların sayı və keyfiyyətinə görə Şuşa XIX əsrdə Qarabağda birinci yeri tuturdu. İncəliyi, zərifliyi, rəngarəngliyi ilə seçilən "Ləmpə", "Qoca", "Bulud" xalçaları və "Dəst xalı-gəbə" kimi xalça dəstləri burada toxunub. Qarabağın əksər məntəqələrində, o cümlədən Şuşa şəhərində toxunan xalçalar əmtəə xarakterli olub Rusiya, Avropa, Asiya ölkələrinə ixrac olunmuşdur. Statistik məlumatlara görə, 1885-1887-ci illərdə Şuşanın xalça istehsalından gəliri 30 min rubl olmuşsa, 1890-cı illərdə bu gəlir artıq 200 min rubla çatmışdır.

Qarabağ xalçaçılıq məktəbinə məxsus "Əjdaha xalçası" Viktoriya və Albert muzeyində saxlanılır. Xalça "Balıq" bu xalça Qarabağ tipinin ən geniş yayılan xalçalarından biridir. Ölkəmizin şimalında "Balıq", İran Azərbaycanında isə "Moxi" adı ilə tanınır. "Balıq" xalçası Qarabağan bütün xalçatoxuma məntəqələrində istehsal olunmasına baxmayaraq, onun əsas istehsal mərkəzi Bərdə şəhəri hesab olunurdu. XVIII əsrin ikinci yarısından isə "Balıq" xalçası Şuşa şəhərində də istehsal olunurdu.

"Qarabağ" adı ilə tanınan xalçalar Azərbaycanın bütün xalçatoxuyan məntəqələrində istehsal olunub. Azərbaycan xalçaçılıq məktəblərindən olan Qarabağ xalçaçılıq məktəbinin Cəbrayıl qrupuna aid edilən xovlu Qasımuşağı xalçasıdır. "Qasımuşağı xalçası"nın adı Laçın rayonunun şimalında yerləşən Şamkənd, Ərikli, Kürdhacı, Çorman və Şəlvə kəndinin əhalisinin adı ilə bağlıdır. Qasım Hacı Sam oğlu qeyd-şərtsiz bir vaxtlar burada yaşayan hörmətli şəxs olub. Bu kəndlərdə yaxın keçmişə qədər yüksək növ xalçalar istehsal olunurdu. Bəhmənli xalçası isə Füzuli rayonunda yerləşən Böyük Bəhmənli kəndinin adı ilə bağlıdır. "Bəhmənli" xalçasınını orta kompozisiyası bir-birinin ardınca düzülmüş, orijinal formalı fiqurlar təşkil edir.

Azərbaycan xalça sənətinin kökü, mənbəyi çox qədimlərdən bəri bir sənət və dəyər əfsanəsinə çevrilib. Gəmiqayadan, Qobustandan, Kür-Araz mədəniyyətindən qaynaqlanan xalça sənətində rəmzlər dünyası yaşayır. Bu sənətin dünya mədəni irsində - YUNESKO-nun şah əsərləri sırasına daxil edilməsi Azərbaycan xalçasının bir uğuru, nailiyyəti kimi əks-səda doğurmuş oldu.

***Zümrüd BAYRAMOVA***

# Əli Kərimli müxalifətin üz qarasına çevrilib

Azərbaycanın sosial-iqtisadi cəhətdən böyük uğurlar əldə etməsi, insanların həyat səviyyəsinin yaxşılaşması, elm, təhsil və digər sahələrdə böyük nailiyyətlər qazanması ölkəmizin Cənubi Qafqaz regionunun şəriksiz lider dövləti olduğunu göstərir. Xüsusilə də, 44 günlük Vətən müharibəsində erməni-terrorçu dəstələrinin başını dəmir yumruqla əzərək ərazi bütövlüyünü bərpa etməsi, Azərbaycanın dünyada yerinin və rolunun möhkəmlənməsinə təkan verib. Artıq tam əminliklə demək olar ki, əgər dünya siyasətini müəyyənləşdirən 20 dövlət varsa, onlardan biri də Azərbaycan Respublikasıdır. Təbii ki, ölkəmizin uğurlarından dost sevinir, düşmən isə pərişan olub, qəm dəryasına qərq olur. Son vaxtlar bəzi yerli və xarici qüvvələrin fəallaşması, ölkəmizə qarşı qarayaxma kampaniyasını, iyrənc böhtanların səsləndirilməsi də, məhz dövlətimizin mütərəqqi uğurlarından pozucu şəbəkənin ciddi narahat olmasından irəli gəlir. Xüsusilə də, dağıdıcı müxalifətin məram və məqsədlərini anlamayan insanları milli və dövlətçilik maraqlarına qarşı qanunsuz hərəkətlərə təhrik etməyə cəhd göstərmələri də bundan xəbər verir. Sosial şəbəkələrdə, bəzi müxalif mövqeli gənclərin Əli Kərimlinin, Cəmil Həsənlinin, Arif Hacılının tapşırıqlarını yaymaları şəbəkənin Azərbaycanla bağlı geniş məkrli planlarının olmasından xəbər verir.



Sual oluna bilər, niyə daxildəki müxalifət və onların təbliğat maşını Azərbaycana qarşı böhtan kampaniyasının icraçıları rolunda çıxış edirlər. Cavab verilə bilər ki, qrant əldə etmək, maliyyə imkanlarına malik olmaq üçün hədyanlar danışır, mənasız ifadələr səsləndirirlər. Növbəti sual: Pul-para o qədərmi şirin oldu ki, ermənilərlə və ya erməniপərəst qüvvələrlə eyni cərgədə dayanıb, Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı kampaniyanın iştirakçısı olasan? Siyasi ekspertlərin gəldikləri qənaətə və araşdırmalara istinad etsək, yenə də məlum olur ki, müxalifətin dağıdıcı qanadı xarici ağalarından daha çox qrant almaq məqsədilə hər cür yaramaz və əxlaqsız vasitə və üsullardan istifadə etməkdən çəkinmirlər. Fakt budur ki, dağıdıcı müxalif məxluqları üçün dövlət, millət, xalq məfhumu da yoxdur. Onların əsas məqsədi bütün vasitələrlə ölkədə iğtişaşlar törətmək, ictimai-siyasi sabitliyi pozmaqdır. Lakin görünən ondan ibarətdir ki, dağıdıcı müxalifət və onların xaricdəki himayədarları ölkəmizə qarşı ən iyrənc metodları seçmələrinə baxmayaraq, hər nansı formada nəticə əldə edə bilməyəcəklər. Necə ki, yağı düşmən və onlara hərbi, siyasi dəstək verənlər torpaqlarımızı işğal altında saxlaya bilmədilər, nəhayətdə Yenilməz Sərkərdə, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz torpaq bütövlüyümüzü bərpa etdi, eləcə də ölkəmizdə sabitliyi pozub, milli birliyimizi sarsıtmaq istəyən dağıdıcı müxalifət istəyinə nail ola bilməyəcək. Ən yaxın perespektivdə dağıdıcı müxalifət parçalanaraq tarixin zibilliyinə atılacaq.

### Xəstə müxalifətin müalicəsinə ehtiyac var

Müxalifət düşərgəsində Azərbaycan dövlətçiliyinə qarşı fəaliyyətlərini daha çox düşmənçilik üzərində quran partiya mənsubları arasında AXCP sədri Əli Kərimlinin mövqeyi digərlərindən fərqlənir. O mənada ki, Ə.Kərimlinin əsassız ittihamları ən qatı erməni milliyyətçilərinin ittihamları ilə eyniyyət təşkil edir. Özünü müxalifətin "lideri", "aparıcı siması" kimi təqdim etməyə çalışsa da, əslində, pulahəris, öz şəxsi maraqlarını milli maraqlardan üstün tutan partiya sədridir. Ətrafında olanları zamanı yetişincə zərbə altında qoyub, partiyadan istefa verənləri qorxaq, satqın damğası vurmaqla ləkələməyə çalışıb. Əli Kərimli torpaqlarımızın müdafiəsində heç zaman iştirak etməyib, əksinə, bilərəkdən və ya bilməyərəkdən Qarabağla bağlı məxfi informasiyaların düşmənə çatdırılmasında iştirak edib. Nə özü, nə də ki övladları Azərbaycan Respublikasının ordusu sıralarında xidmət göstərməyiblər. Bu baxımdan, onun vətənpərvərlikdən geninə-boluna Sevinc Osmanqızının və digər özü kimi düşüncədən kasad şəxslərə verdiyi müsahibələr, açıqlamalar boş və mənasız uydurmalardan başqa bir şey deyil. Həm də Ə.Kərimli bütün çıxışlarında Qarabağ probleminin həllinin müharibə yolu ilə mümkün olmadığını bəyan edirdi. Hətta Azərbaycanın Müzəffər Ordusu Qaragöl istiqamətində mövqelərini möhkəmləndirən zaman, Ermənistanla şərti sərhədləri yaxınlığında yeni postlar qurulan zaman Ə.Kərimli bunun gərəksizliyini vurğulayıb, AXC-Müsavat haklimiyyəti dönəmində daxili qoşunlara rəhbərlik etmiş Fəhmin Hacıyevlə ağız-ağıza verib hay-küy qaldırırdılar. Bütün bunlar bir daha göstərir ki, Ə.Kərimlinin fəaliyyəti ancaq xarici ağalarının sifarişlərinə əsaslanır. Təbii ki, sifarişlər yerinə yetirilən zaman şəxsi istək və maraqları da qrant şəklində nəzərə alınır. Belə xəstə təfəkkürə malik partiya sədrinin siyasi arenda qalmasının özü təhlükə mənbəyidir. Onun sağalması, sağlam təfəkkürdən çıxış etməsi də mümkünsüz görünür. Çünki o, uzun illərdir ki, xəstə düşüncələrini ürəyində, qəlbində yaşadan şəxs olub. Yəni, xəstəliyi canına, qanına, bir sözlə, bütün varlığına hopub. Son vaxtların müəyyən hadisələri təsdiq edir ki, Ə.Kərimli artıq mənasız xəstə çağırışları ilə, ətrafında olanları da bezdirib. Partiyadan istefaların son vaxtlar artmasının da, məhz bundan qaynaqlandığı ehtimal olunur.

***İ.ƏLİYEV***

# "ABŞ ermənilərin "nazı ilə oynasa", Rusiya bu məqamdan yararlanmağa çalışacaq"



"Vaşinqtonda ABŞ dövlət katibi Entoni Blinkenin vasitəçiliyi ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın danışıqları davam edir. Əvvəlcə ABŞ dövlət katibi hər iki nazirlə əvvəl ayrılıqda da bir araya gəlib. Yayılan məlumatlara görə, danışıqların bir neçə gün davam edəcəyi gözlənilir". Bunu siyasi ekspert Abutalıb Səmədov "Səs" qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatında bildirilirdi ki, səfər çərçivəsində Ermənistanla "sülh sazişi" layihəsi üzrə danışıqların növbəti raundunun keçirilməsi nəzərdə tutulub: "Danışıqların bir neçə raundda davam etməsi ilk belə faktdır. ABŞ-ın təşəbbüsü ilə başlanan danışıqlar sülh sazişinə gətirib çıxara biləcəkmi? Ukrayna cəbhəsində kifayət qədər ağır duruma düşən Rusiya danışıqları pozmaq üçün hansı addımları atacaq?

Hər şeydən əvvəl onu qeyd etməliyik ki, ABŞ Azərbaycan-Ermənistan danışıqlarının nəticə verməsinə son 20 ildə heç vaxt bu qədər ciddi yanaşmayıb. Təqribən bir həftə sürəcək danışıqlarda irəliyə doğru xeyli məsafə qət etmək və Avropa siyasi birliyinin iyunun 1-də Kişinyovda keçiriləcək ikinci sammitində sülh sazişini imzalamaq hədəf götürülüb. Dünyanın ən böyük gücü olan ABŞ bundan 22 il əvvəl Ki-Vest şəhərində Azərbaycan, Ermənistan liderləri- Heydər Əliyevlə Robert Koçaryanın bir neçə gün davam edən görüşünü təşkil etmiş, nəticəyə nail olmaq üçün xeyli səylər göstərmişdi. Ortaya qoyulan "ərazi mübadiləsi" təklifi Azərbaycanı qətiyyən qane etmədiyindən danışıqlar uğursuz başa çatmışdı.

İndi vəziyyət tamamilə dəyişib. Əsas mübahisə mövzusu olan "Qarabağ məsələsi" artıq həllini tapıb və danışıqlarda müzakirə olunmamalıdır. Hərçənd ki, ermənilərin belə bir cəhd göstərəcəkləri və "sülh sazişi"nə Qarabağla bağlı müddəa saldırmağa çalışacaqları istisna olunmur. ABŞ bunun qarşısını qəti şəkildə almasa və ermənilərə təzyiq göstərməsə danışıqlar prosesi yenə "düyünə düşəcəkdir". Bu baş verərsə, bundan ən çox qazanan prosesləri ləngitməyə çalışan Rusiya olacaq.

Nəzərə alsaq ki, Rusiya bütün diqqətini başlanması az qala hər gün gözlənilən Ukrayna ordusunun əks-hücumuna yönəldib və Vaşinqton danışıqlarına təsir etmək imkanı yoxdur etiraf etməliyik ki, son illər belə əlverişli şərait heç vaxt olmayıb. ABŞ administrasiyası bunu düzgün qiymətləndirib prosesi pozmağa çalışan Ermənistana maksimum təzyiq göstərməlidir. Ermənistan bu təzyiqlərə müqavimət göstərmək gücündə deyil və bunu hamı yaxşı başa düşür.

Əgər ABŞ bu qətiyyəti göstərməsə və növbəti dəfə ermənilərin "nazı ilə oynasa" Rusiya bu məqamdan yararlanmağa çalışacaq. Xarici işlər nazirlərinin planlaşdırılan Moskva görüşündə irəliyə doğru addım atmaq üçün ciddi-cəhdlə çalışacaq və "sülh sazişi"nin imzalanmasını təşkil edən vasitəçi olmaq üçün erməniləri maksimum "sıxmaq" üçün əlindən gələni edəcəkdir. Rusiya yaxşı başa düşür ki, Azərbaycana təzyiq göstərib, güzəştə getməyə məcbur etmək qeyri-mümkündür. Ötən il keçirilən Coçi sammiti bu reallığı açıq-aşkar göstərdi. Sonrakı danışıqlar nümayiş etdirdi ki, Rusiya rəsmiləri bunu artıq anlayıblar və mövqelərini ciddi şəkildə dəyişiblər. Ümid edək ki, ABŞ administrasiyası da bu reallığı anlayacaq və Vaşinqton danışıqları uğurla başa çatacaq. Unutmamalıyıq ki, söhbət təkcə "sülh sazişi"nin imzalanmasından getmir. Söhbət həm də Qərbin Cənubi Qafqazda yerləşməsindən və Rusiyanı vurub bölgədən çıxarmasından gedir. Bu nəticə Azərbaycanın dövlət maraqlarına tam uyğundur və biz razılaşmanın qərbin vasitəçiliyi ilə imzalanmasında maraqlıyıq".

***GÜLYANƏ***

# Məktəb məsələləri

## FEIYETON

Bir zamanlar elm, maarif yolunda nə kişilər mübarizə apardılar. Nə təqiblərlə üz-üzə qaldılar. Bilsəydilər ki, bu gün elmə, təhsilə, məktəbə və oxumağa belə qiymət veriləcək, əcaba yenədəmi bu savab əməllərini davam edərdilərmi?

Ey dünya, biz bu günlərə niyə qaldıq? Nə səhv etdik, nə əməli-cəzaya məhkum olduq ki, başımıza bunlar gəlir? Soruşsanız ki, bu nə gileydir, nə güzardır? Vallah bilmirəm zır-zır ağlayım, yoxsa sizə cavab verim. Ey dünya, dağılardın gərək ki, bizi bu cür "məzadə" salmayaydın. Nə idi günahımız? Niyə belə oldu axı. Nəyi boş buraxdıq ki, başımıza gələn bunlar oldu...

Haradasan, ay Molla baba, barı arada bir sən gəlibən dərdimizə dava ol. Bir dinlə, ağıldan-huşdan ver bizə. Bir dərs keç. Denən, ey əhli-insan, oyan, qəflət yuxusundasan, oyan. Bax inan, Molla baba, gəlsən, görəcəksən ki, qəflət indidir, sizin dövrünüzdə qəflət-filan yox imiş...

Gəlsən, görərsən ki, o zülmi-billahla yaratdığınız təhsil, elm ocaqlarında nələr baş verir. Görsəniz, deyərsiniz ki, əcaba, biz bunu niyə yaradırdıq? Bəzi müəllim nə özünü müəllim kimi aparmağı bacarır, nə də bəzi uşaqlar. Dərsdən qaçan kimi, məktəbə getmək istəməyən kim... Müəllimi döyməyə çalışan kim. Müəllimin təhqir etdikləri kim...

Vallah, ay Molla baba, oxutmuram, əl çəkin, deyirdiniz ha, vallah bunu indi üçün demisiniz. Adam demək istəyir ki, ay qardaş, ay bacı, oxutmursunuz, oxutmayın da. Ta bu nə oyunlardı çıxarırsınız axı. Hə, vay o gündən ki, müəllim uşağa, "ay uşaq, sakit dur, axı dərsi pozursan?", "ay uşaq, o telefonu yığışdır, bura onun yeri deyil" deyə. Vəssalam, çəkil dur kənarda, ardına bax. Gör, bu uşaq müəllimin başına çıxır, ya çıxmır. Gedib dədə-nənəsini məktəbə gətirib biabırçılıq edir, ya yox. Hələ bu harasıdır? Gör, sinifdə olanları telefonla çəkib sosial şəbəkələrdə paylaşır, ya yox.

Molla baba, müəllimlər var ki, nə mən deyim, nə sən dinlə. Birdən elə hərəkətləri eşidirsən ki, lap yerindəcə quruyursan. Uşaqla elə danışır, elə rəftar edir ki, elə bil müəllimi deyil, düşmənidir. Bax, buna nə deyəsən? Deyəsən ki, axı sən müəllimsən, bu nə ədadır, qayıdıb elə danışacaq ki, üzr istəməli olacaqsan. Amma ki, əslində heç də belə deyil.

Bilmirsən ki, uşaqdadır günah, yoxsa bu cür müəllimlərdə. Qalırsan çıxılmaz vəziyyətdə. Uşaqla danışırsan, and-aman edir ki, günahsızam, müəllimlə danışırsan, səni borclu çıxarır.

Hansını deyəsən, hansından danışasan, ay Molla baba. Dərd birdimi, ikidimi, vallah, çoxdur. Gəl otur, dinlə ki, dinləyəcəksən, günlərlə, aylarla. Nə başını ağrıdım, maariflənmək istəyən uşaqların da sayı azalıb. Maarif yaymaq istəyən müəllimlərin də.

Bir də eşidirsən ki, qonşuda uşaq dərsini öyrənmək istəmir, tapşırığını yerinə yetirməkdən imtina edir, aləm dəyir bir-birinə. Ana çığırır, uşaq çığırır, uşaq susur, ana başlayır, ana susur, uşaq başlayır. Bunu tək qonşuda görmürsən ey. Bütün sosial şəbəkələrdə ta bir dəbə çevrilib bu. Uşaqların tapşırıq həll etmədiyini valideyn çəkib yerləşdirir şəbəkələrə, hamı da baxıb uğunur. Valideyn deyir ki, oxuma, zibilçi olanda gününü görəcəyəm. Uşaq da deyir ki, oxumuram, mən zibilçi olmaq istəyirəm. Ana deyir, ay bala, gətir misalları yazaq, ərköyün uşaq da deyir ki, söz ver ki, mənə filan oyuncağı alacaqsan, yazım. Ana deyir ay uşaq, dərsini oxu, uşaq deyir, ay ana, sən qarışma.

Müəllimlər var, müəllim günü, 8 martda hədiyyə alma ona, gör başına nə oyun açır. Sənə bir minnət vursun ki, biri də üstəlik. Müəllim var ki, dərsi sinifdə yaxşı başa salmır ki, valideyn uşağı onun yanına hazırlığa qoysun. Müəllim var ki, sinifdə bir şagirdin hünəri nədir ki, başqa müəllimin yanına hazırlığa getsin. O uşağın gününü edər qara. Hə, Molla baba, hansından danışım ki... Bu məktəb məsələlərindən hər dəfə danışanda, vallah, adamın ağlamağı gəlir. Deyirsən, bu günlərəmi də qalacaqdıq? Axı qalmalı deyildik. O məktəbləri yaradan kişilər vardı. Min bir çətinlik çəkənlər vardı. Budurmu onların əməyinə hörməti-izzət?..

Bağışla, Molla baba, başını dərd-sərimizlə ağrıtdım. Dedim bəlkə gəlib bizə bir ağıl-kamal verəsən. Yolumuz yaman səhv düşüb...

***Mətanət Məmmədova***

# Qarabağ: Zəngilanın Azərbaycan iqtisadiyyatındakı rolu

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış” istiqaməti çərçivəsində hazırlanıb*









I YAZI

Qarabağ işğalda olduğu müddətdə Azərbaycan iqtisadiyyatından əhəmiyyətli pay da işğal edilmiş sayılırdı. Çünki Qarabağın təbii ehtiyatlarla zəngin torpağı ölkəmizin iqtisadi gəlirlərində əhəmiyyətli paya malik idi. Belə ki, Dağlıq Qarabağda 5 qızıl, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 1 daş kömür, 6 gəc, 4 vermikulit, 1 soda istehsalı üçün xammal, 12 əlvan və bəzək daşları, 10 mişar daşı, 21 üzlük daşı, 9 gil, 20 sement xammalı, 8 müxtəlif növ tikinti daşları, 6 əhəng xammalı, 10 qum-çınqıl, 4 tikinti qumu, 1 perlit, 8 pemza-vulkan külü, 16 yeraltı şirin su və 11 mineral su yatağı var. Bundan əlavə Qarabağ nadir bitki örtüyü ilə də dünyada məşhur olan bir ərazi olub.

### Zəngilan Azərbaycan üçün nə deməkdir?

Zəngilan rayonu Kiçik Qafqaz dağ silsiləsinin cənub-şərqində, Araz çayının sol sahilində yerləşir. Zəngilan rayonunda bir şəhər, 5 qəsəbə (Ağ oyuq, Mincivan, Bartaz, Ağbənd, Həkəri) və 79 kənd olub. Zəngilan nadir bioekoloji əlamətinə görə bənzərsizdir, bu səbəbdən onu ”Şərq florasının mirvarisi”, möhtəşəm gövdəsi və füsunkarlığına görə isə çinarlarını ”Cənubun nəhəng ağacı” adlandırırdılar. Zəngilanda yaşı 1500-ə, hündürlüyü 50 metrə, gövdə diametri 4 metrə çatan ağaclar var idi.

Zəngilan rayonu iki ölkə ilə qonşu dəhlizlərə malik olmaqla xarici ticarət üçün unikal imkanlara sahibdir. Tranzit nöqteyi-nəzərdən İran islam Respublikası ilə ticarət münasibətləri yarana bilər. Həmçinin Kəlbəcər-Laçın iqtisadi rayonunda Kəlbəcərdən sonra ikinci daha böyük və sənaye əhəmiyyətli 6,5 ton qızıl və 3 min ton mis təşkil edən Vecnəli yatağı bu rayondadır.

Ehtiyatları 6618 min m3 olan və üzlük daşı istehsalına yararlı Oxçuçay mərmərləşmiş əhəngdaşı, təsdiq edilmiş ehtiyatları 129 mln. ton olan Zəngilan (Daşbaşı-Əsgurum) əhəngdaşı, ehtiyatları 6024 min ton olan qırmadaş və əhəng istehsalına yararlı Zəngilan əhəngdaşı, ümumi ehtiyatları 28943 min m3 təşkil edən Bartaz-I və Bartaz-II porfirit, ehtiyatları 1102 min m3 olan kərpic-kirəmid istehsalına yararlı Zəngilan gil yataqları və ehtiyatları 17367 min m3 olan Zəngilan qum-çınqıl qarışığı yataqları da buradadır.

### Dünyada yeganə ”Qırmızı Çinar Meşəliyi”

İşğal dövründə böyük bir xarabalığa çevrilən Qarabağın həm təbii sərvətləri məhv edilib, həm də bərpası mümkünsüz olan misilsiz nümunələri talan edilib. Bu nümunələrdən biri də Zəngilanın dünyaca məşhur qırmızı çinar meşəliyi idi.

Çinar Meşəsi təbii olaraq bütün dünyada marağa səbəb olurdu. Bu çinar meşəsi təkcə Azərbaycanın deyil, bütün Qafqazın flora-faunasının zənginliyində özünəməxsus yer tuturdu. Bəsitçay hövzəsində yerləşən təbii çinar meşəsi sahəsinə, ağacların fiziki sağlamlığına, görünüşünə görə dünyada marağa səbəb olub.

Çinar meşəsi çox nadir və füsunkar yaşıllıq mənbəyidir və ölkəmizin əvəzolunmaz sərvəti hesab edilirdi. Zəngilan çinarları dünyada bitən 8 çinar növündən biri idi. XX əsrin əvvəllərində sahəsi 120 hektara yaxın olan bu Çinar meşəsi bütünlüklə Azərbaycana məxsus idi.

Lakin 20-ci illərdə Zəngəzur torpaqlarının yarısının Ermənistana verilməsi ilə Bəsitçay vadisindəki çinar meşəsinin bir hissəsi- Xaçın çay və Şixavuz çay vadiləri boyunca yayılan ağacları indiki Ermənistanın Qafan rayonunun Nerkin-Hand, Sav və Şixavuz kəndləri ərazisində qalıb. Beləliklə, ermənilər bu çinar meşəsinin də bir hissəsini öz ərazilərinə qatıblar.

Sonralar akademik Həsən Əliyevin təşəbbüsü ilə nadir təbiət abidəsi olan çinar meşəsini qorumaq məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin 1974-cü il 4 iyul tarixli qərarına əsasən Zəngilan rayonunun ərazisində 117 hektar sahəni əhatə edən Bəsitçay Dövlət Təbiət Qoruğu yaradıldı.

Zəngilanın çinar meşəsi Avropada ən böyük, dünyada isə Kanadadan sonra 2-ci yeri tutur. Hazırda Kanada dövlətinin bayrağının üzərindəki Şərq çinarı yarpağının təsviri uzun müddətdir ki, bu dövlətin rəmzinə çevrilib. Bununla yanaşı, bir çox müəlliflər öz tədqiqatlarında hətta belə qənaətə gəlirlər ki, Zəngilanın çinar meşəsi- Şərq çinarı meşəsi dünyanın ən böyük çinar meşəliyi olub.

Tədqiqatçı, coğrafiyaşünas Oktay Ələkbərov da öz araşdırmalarında qeyd edir ki, Zəngilanın çinar meşəsi Yer kürəsinin ən böyük çinar meşəsidir və bu meşə massivi sahəsinin böyüklüyünə görə dünyada birincidir. Zəngilanın çinar meşəsi təkcə yerli mütəxəssislərin, coğrafiyaşünas alimlərin deyil, həm də dünya elminin görkəmli tədqiqatçılarının diqqətini cəlb edirdi.

Zaman-zaman xarici alimlərin Zəngilan çinarları ilə yerində tanış olmaq üçün meşəyə gəldikləri də məlumdur. Ekspedisiya nümayəndələri Zəngilan çinarları ilə yerində tanış olaraq, onların hündürlüyü, diametri, xüsusiyyətləri, görkəmi haqqında ətraflı məlumat toplayıb və öz yazılarında bunlardan bəhs ediblər.



### Daşı-torpağı qızıl Zəngilan

Heç şübhəsiz ki, Zəngilanın işğaldan azad olunması ölkəmizin iqtisadi inkişafını sürətləndirəcək. İqtisadiyyatda tikinti sektorunun əhəmiyyətli paya malik olduğunu nəzərə alsaq, daxili tələbin qarşılanmasında Zəngilan rayon təbii sərvətləri əhəmiyyətli rol oynacaq. Bundan əlavə, son illər mineral resurslarımızın ixracı qeyri-neft sektorunda liderlik edir. Daha dəqiq desək, Zəngilan rayonunda sənaye əhəmiyyətli 6,5 ton qızıl və 3 min ton mis təşkil edən Vecnəli yatağından istifadə ilə ölkəmiz mineral resurslar ixracını daha da artıracaq.

İşğalda ikən Zəngilan rayonu ərazisində sübut olunmuş sənaye ehtiyatları 6,5 ton qızıl və 3 min ton mis olan Vedjneli qızıl yatağı da işğalçıların əlində qalıb. Belə ki, Azərbaycanın işğal olunmuş ərazilərində sənədləşdirilmiş təsdiq olunmuş sənaye ehtiyatları ilə zəngin 3 qızıl yatağı var idi ki bunlar da Zəngilan rayonundakı Vedjneli, Ağdərə rayonunda Qızılbulaq və Kəlbəcər rayonundaki Zod yataqlarıdır.

Dağlıq Qarabağın işğal olunmuş ərazilərində təbii sərvətlərin talan edilməsi məqsədilə 30-dan çox şirkət yaradılmışdı. Kəlbəcər rayonunun Heyvalı kəndi yaxınlığında yerləşən mis və qızıl yatağının kəşviyyat və istismar məqsədi ilə ərazidu da inşa edilmişdi.

### Zəngilanın turizm üçün əlverişli potensialı var

Zəngilan qızıl və mis kimi dəyərli metallarla və sənaye əhəmiyyətli ehtiyatlarla zəngindir. İllərdir işğalçı Ermənistan Zəngilan rayonu ərazisində ”ekoloji terror” həyata keçirib, yataqlar vəhşicəsinə istismar edilib. Zəngilan meşələrindən kəsilən nadir ağaclar ermənilər tərəfindən bəzi Avropa şirkətləri vasitəsilə qonşu ölkələrə daşınırdı. Xüsusilə, Bəsitçay Milli Parkındakı çinar ağacları erməni işğalçıları tərəfindən kəsilərək inşaat materialları istehsal edən xarici şirkətlərə satılırdı.

Zəngilan turizm potensialı yüksək olan rayondur. Rayonda 107 hektar sahəsi olan Bəsitçay Dövlət Qoruğu, 2,2 min hektar sahəsi olan Arazboyu yasaqlığı, 4 təbiət abidəsi, 10 min hektar xüsusi mühafizə olunan Araz palıd meşəsi, 12.864 hektar dövlət meşə fondu, 1200-dək təbii bulaqlar, 4 mənbədən ibarət Yesentuki-4 suyuna tərkibcə uyğun gələn mineral bulaqlar, Turşsu mineral bulaqları mövcuddur.

Zəngilan rayonu termal sularla zəngin olduğu üçün burada müalicəvi sanatoriya tipli turizm obyektləri inşa edilə bilər. Həmçinin müxtəlif tarixi abidələrin, xristianlığa və islama aid müxtəlif ziyarətgahların yerləşdiyi ərazilər turizm üçün yararlıdır. Hətta maraq çoxdur. Rayonun əsrarəngiz dağlıq əraziləri var ki orada dağ-idman turizmi təşkil oluna bilər.

1974-cü ildə yaradılan 107 hektar ərazisi olan Beşitçay Milli Parkında dəyərli ağaclar mövcuddur ki, bəzilərinin yaşı 1200-1500 ili keçir. Bütün bunlar bölgənin turizm potensialının bir göstəricisidir.

### Gözümüz kimi qoruduğumuz tarixi abidələri məhv edilib

Zəngilanın 8 tarixi-dini abidəsi, 20 ziyarətgahı, 18 tarixi memarlıq abidəsi olub. İşğaldan azad edildikdən sonra məlum oldu ki ermənilər abidələrin əksəriyyətini yerlə yeksan edib, xarabalığa çeviriblər. Həmçinin Zəngilanda olan 70 kitabxana, 3 muzey, 4 musiqi məktəbi, 2 kinoteatr, park işğal zamanı yox edilib.

Zəngilan abidələri öz memarlıq xüsusiyyətlərinə görə fərqlənirdi. Bu ərazilərdə XIII-XIV əsrə aid sənduqə, qoç, at heykəlli qəbirdaşları ərəb, fars, Azərbaycan dilli yazılarla və müxtəlif relyeflərlə xalqımızın həyatının, məişətinin müxtəlif tərəflərini əks etdirir, tariximizə, toponimikamıza, xalq təbabətinə, etnogenez məsələlərinə aydınlıq gətirir, Azərbaycanın orta əsr mədəni həyatına dair bir sıra məsələləri işıqlandırırdı. Zəngilan ərazisi ən qədim insanların yaşayış məskənlərindən hesab olunur. Bölgə ərazisində mövcud olan bir neçə mağara burada ibtidai insanların yaşayışından xəbər verir.

İşğaldan azad edildikdən sonra Zəngilanda tarixi abidələrin bərpası işlərinə başlandı, dağıdılmış abidələr, məscid və ziyarətgahlar yenilənir. Zəngilan rayonunun müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyasına uyğun bərpa işləri sürətlə davam etdirilir. Çox uzaq olmayan gələcəkdə bu rayonun Azərbaycan iqtisadiyyatına önəmli dərəcədə töhfələri olacaq.

***Lalə Mehralı***

## Daxili turizmin inkişafı qiymət artımına səbəb olacaq?



"Hər il yay aylarında Azərbaycanda daxili turizm inkişaf etməyə başlayır. Daxili turizm daha çox 2020-ci ildə pandemiya dövründən etibarən inkişaf etməyə başladı. Çünki xarici ölkə sərhədləri bağlı oldu. Hətta o dövrdə hava sərhədləri də bağlı idi. Əvvəllər insanlar avtobus və ya öz avtomobilləri ilə Gürcüstan, Türkiyə və digər ölkələrə səfər edə bilirdilər". Bu sözləri SİA-ya açıqlamasında daşınmaz əmlak üzrə ekspert Elnur Fərzəliyev deyib.

Onun sözlərinə görə, hal-hazırda təyyarə biletlərinin qiymətinin baha olması və quru sərhədlərin bağlı ol-
ması səbəbi ilə aztəminatlı və orta səviyyədə mad-
di imkana malik olan insanlar ölkədə qalmağa üstünlük verirlər: "Bu da bölgələrdə da-
xili turizmin inkişafına gətirib çıxarır. Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə tu-
ristik zonalarda insan axını müşahidə olunur ki, bu da həmin regionların həm iqtisadi
vəziyyətinə, həm də əmlak sahəsinə müsbət təsir göstərir. Yəni, o ərazilərdə otellərlə
yanaşı, gündəlik evlərə də tələbat artır. Bununla da qiymət artımı baş verir. Eyni za-
manda, təqribi 3 il ərzində paytaxt əhalisi, daha çox imkanlı şəxslər bağ evlərini Bakı-
da deyil, ölkənin digər bölgələrində alırlar. Bu da həmin ərazilərdə əmlaka tələbatı artırır
və öz növbəsində qiymət artımına səbəb olur".

Ekspert sözlərinə davam edərək bildirib ki, bugünkü gündə Quba, Qusar,Xaçmaz, Qə-
bələ, Şəki və yaxud digər turistik zonalarda əmlak sahiblərinin bir hissəsi paytaxt sakin-
ləridir: "Təbii ki, bu çox yaxşıdır. Ölkənin digər sahələrində, xüsusilə daşınmaz əmlak və
turizm sektorunda inkişaf gedir. Amma bunun mənfi cəhətləri də var. Həmin bölgələrdə
evlərin gündəlik kirayə qiymətləri baha olur. Bu da hər kəs üçün əlçatan olmur. Müqayisə
üçün deyə bilərik ki, vətəndaşlarımızın daha çox axın etdiyi ölkələrdən olan Türkiyə və
Gürcüstanda turizmlə bağlı qiymətlər Azərbaycandakı turistik zonalardan ucuzdur. Təəs-
süf ki, bizdə qiymətlər kəskin şəkildə baha olduğu üçün aztəminatlı ailələr bu istirahət mə-
kanlarından kifayət qədər istifadə edə bilmirlər. Təbii ki, qiymətlər hamı üçün əlçatan ol-
masa da, ölkənin iqtisadiyyatına müsbət təsir göstərir. Artıq xarici ölkələrin turizm sekto-
runa qoyulacaq yatırımların böyük hissəsi Azərbaycana qoyulur".

***Ləman Əlizadə***

# Günə erkən başlayın, görün nələr olur



***Depressiya və yuxu arasında nə əlaqə var deməyin, var. Yuxusu normal olan, səhərlər erkən oyanan insanlar depresiyaya girmir. ABŞ alimləri səhər tezdən durmağın depressiya riskini əhəmiyyətli dərəcədə azaltdığını açıqlayıb. Onlar erkən yatıb tez oyanan insanların depressiya riskinin gec duranlara nisbətən 23 faiz az olduğunu müəyyən ediblər.***

### Erkən oyanmaq depressiyadan qoruyur

Axşam saat 10-da yatıb səhər 6-da oyanan insanların "günə erkən başlayan insan" olduğunu deyən alimlər, yuxu vərdişlərinə təsir edən ümumilikdə 340 fərqli genetik variantın olduğuna da diqqət çəkirlər. Digər tərəfdən, alimlər bu insanların yuxu vərdişlərinə görə deyil, genetik meyllərinə görə depressiyaya meylli olduqlarını vurğulayırlar. Mütəxəssislər deyirlər ki, bir saat tez yatmaq, bir saat erkən oyanmaq da depressiyaya qarşı faydalı ola bilər.

Depressiya bütün dünyada yüz milyonlarla insana təsir edir. Ekspertlər pandemiya prosesində vəziyyətin daha da ciddiləşdiyini vurğulayırlar. Lakin pandemiya həm də iş və yuxu rejiminin dəyişməsinə də səbəb olub.

Səhər tezdən oyanmağın faydaları saysız-hesabsızdır. Günəşin doğuşuna şahid olmaq, səhərin sükutunu və sakitliyini hiss etmək, təmiz oksigen almaq, tıxacda qalmamaq, günün qalan hissəsində aktiv olmaq... Min illərdir ki, bəşəriyyət olaraq günə başlamaq üçün orqanizmimiz günəş şüaları ilə başlamağa və günəş batdıqda yuxuya getməyə proqramlaşdırılıb.

"Chronobiology International" elmi jurnalının araşdırmasına görə, gecə gec yatanların sağlamlıq problemləri daha çoxdur. Səhər tezdən yeyilən səhər yeməyi bütün gün yediklərimizi nizamlayır və sağlam qidalanmamıza şərait yaradır.

Araşdırma nəticələrinə görə axşam gec yatan və səhər gec oyananlar daha çox yemək yeyirlər. Səhər yeməyi yemədikləri, fast-food istehlakına daha açıq olduqları üçün çəki problemi yaşama riski erkən oyananlara nisbətən daha yüksəkdir. Xüsusi bir yuxu rejiminiz yoxdursa, buna nail olmağın ən asan yolu səhər tezdən oyanmağın yollarını axtarmaqdır. Erkən və həmişə eyni vaxtda oyandığınız zaman, orqanizminiz buna asanlıqla vərdiş edir və müəyyən bir ritm yaradır. Beləliklə, axşam yuxunuz öz-özünə gəlir və sabah daha tez oyanırsınız.

### Melotonindən məhrum olmaq

Yuxu hormonu olaraq da bilinən melatonin ifrazı axşam saat 21.00-22.00 arasında başlayır. Gecə saat 02:00 ilə 04:00 arasında ən yüksək səviyyəyə çatır. Melatonin yuxunu tənzimləməklə yanaşı, immunitet sisteminin güclənməsinə, hüceyrələrimizdən başlayaraq bədənimizin və ruhumuzun yenilənməsinə dəstək verən bir hormondur. Bu müddət ərzində oyaq olsaq, melatoninin bu gücləndirici və bərpaedici təsirindən məhrum olarıq.

Səhər tezdən durmağı bacaranlar üçün gün çox uzundur. Çünki erkən oyananda bütün işlərini vaxtında yerinə yetirirsən, tezdən durduğunuz üçün səhərin sakit vaxtlarında iş görmək daha asandır. Şəhər hələ ayılmayıb, nəqliyyatın səs-küyü başlamayıb, xaotik gün başlamayıb. Səhər saatları diqqəti cəmləmək, səmərəli işləmək və sağlam qərarlar qəbul etmək üçün idealdır. Erkən oyanmağın ən böyük faydası bütün günü planlaşdırmağın olduqca asan olmasıdır.

Araşdırmalar göstərir ki, idman edən, sağlam qidalanan və keyfiyyətli yuxu yatan insanların depressiya riski daha azdır. Bütün bunları etmək üçün səhər tezdən durmaq kifayətdir. Səhər saatlarını yoqa, pilates və açıq havada gəzinti kimi məşğuliyyətlərə də ayıra bilsəniz.

"British Medical Journal"da yayımlanan bir araşdırmaya görə isə gecələr oyaq olan insanlarda infarkt riski yüksəkdir. 34 araşdırmanın ümumiləşdirilmiş nəticəsinə görə Kanadada 2010-2014-cu illər arasında infarkt hallarının 7 faizi, ifliclərin 1.6 faizinin, qan-damar problemlərinin 7.3 faizi gecə yatmayan insanlar arasında qeydə alınıb.

Dünyada bu yöndə aparılan bütün araşdırmalar gecələr yatmayan insanın beyninin tez qocalmasına səbəb olur, bu da dolayısı ilə ağlını, yaddaşını tez itirməyə səbəb olur. Fransada 3 min insan üzərində aparılan elmi təcrübə də bunu təsdiqləyir. Könüllülərin sürətli düşünmə, qərar vermə və yaddaşı yoxlanıldıqdan sonra məlum oldu ki, gecələr oyaq qalanların normal yatanlara nisbətən yaddaşı, çevik qərar vermə qabiliyyəti zəifdir. Doğrudur, beyin təbii olaraq insan yaşlandıqda yaşlanır, amma gecə yuxusu olmayanların beyni ikiqat sürətlə yaşlanır və bu ağlını itirmə, ciddi yaddaş pozuqluqları ilə müşahidə olunan alzeymer xəstəliyinə təkan verir.

***Lalə Mehralı***

## Dəfn pulu kimlərə verilir?

*HÜQUQŞÜNAS AÇIQLADI*



"Dəfn üçün müavinət sığortaolunan, əmək pensiyaçısı və ya sosial müavinət alan şəxs vəfat etdikdə verilir". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Şamil Paşayev deyib. Onun sözlərinə görə, yaşa görə pensiya alan şəxs vəfat etdikdə dəfn xərcini üzərinə götürən şəxsə minimum pensiyanın 3 misli qədər vəsait ödənilir: "Yaşa görə müavinət alan və sığortaolunan şəxs vəfat etdikdə isə 350 manat məbləğində birdəfəlik müavinət ödənilir. Vəfat etmiş şəxs eyni zamanda həm sığortaolunan, həm də əmək pensiyaçısı olduqda, dəfn üçün müavinətin biri - məbləğcə daha böyüyü ödənilir.

Sığortaolunan, əmək pensiyaçısı və ya sosial müavinət alan şəxs vəfat etdikdə, dəfn üçün müavinət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən vəfat edən şəxsin ailə üzvlərin ə və ya onu dəfn etməyi öhdəsinə götürən şəxslərə verilir.

Bu məsələ üçün DOST Mərkəzlərinə yaxınlaşa, bələdiyyədən də arayış alına bilər. Arayış verilir ki, ölüm xərclərini kim həyata keçirəcək. Bununla da həmin şəxslər dəfn pulu alınır. Əgər sığortaolunandırsa, Sığorta qurumumun müvafiq arayışı DOST Mərkəzlərinə təqdim olunmalıdır. Bunu da dəfn edən adam verməlidir. Dəfn pulu 5 gün ərzində həmin adamın balansına ödənilir".

***Ayşən Vəli***

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**